QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 075 (5795) **26 aprel** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Xarici sərmayələrin yüksək səviyyədə qorunması Azərbaycanın cəlbediciliyini artırır"

*Prezident İlham Əliyev Pekində bir sıra aparıcı şirkətlərin rəhbərləri ilə görüşüb*



Səh 2

4

**Akademik Zərifə Əliyevanın adı Azərbaycanda hər zaman fəxrlə, sonsuz qürur hissi ilə səslənir**



5

**Bakıda "Dinlərarası dialoq və radikalizmlə mübarizə" mövzusunda beynəlxalq konfrans keçirilir**



9

**İçərişəhər DTMQİ: Sosial şəbəkələrdə İçərişəhərlə bağlı yayılan fotogörüntülər həqiqətə tamamilə ziddir**



# "Xarici sərmayələrin yüksək səviyyədə qorunması Azərbaycanın cəlbediciliyini artırır"

*Prezident İlham Əliyev Pekində bir sıra aparıcı şirkətlərin rəhbərləri ilə görüşüb*

***Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində "Huawei" şirkətinin sədri Lian Xua ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, "Huawei" şirkətinin sədri Lian Xua artıq 15 ildən çoxdur Azərbaycanda uğurla fəaliyyət göstərdiklərini bildirdi və onlara yaradılan şəraitə görə dövlətimizin başçısına təşəkkür etdi.***

Prezident İlham Əliyev "Huawei" şirkətinin Azərbaycandakı fəaliyyətini yüksək qiymətləndirdi, bu şirkətin informasiya-kommunikasiya texnologiyaları sahəsində dünyanın aparıcı şirkətlərindən biri olduğunu qeyd etdi. Həmçinin 2015-ci ildə Çinə dövlət səfəri zamanı "Huawei" şirkətinin fəaliyyəti ilə yaxından tanış olduğunu bildirdi. Azərbaycan ilə "Huawei" arasında əməkdaşlıq baxımından böyük perspektivlərin olduğunu deyən dövlətimizin başçısı bu şirkətin "Bakutel" sərgisində ənənəvi iştirakından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev İKT sahəsində ölkəmizdə həyata keçirilən islahatlardan danışdı, bu sahədə "Huawei" ilə əməkdaşlığın perspektivli olduğunu bildirdi.

Söhbət zamanı İKT infrastrukturu, ağıllı kənd təsərrüfatı, ağıllı şəhər və ağıllı ev, rəqəmsal iqtisadiyyat, rəqəmsal təhsil və digər sahələrdə reallaşdırıla biləcək layihələrlə bağlı fikir mübadiləsi aparıldı.





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Pekində "China National Electric Engineering" şirkətinin prezidenti Cao Huy ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, "China National Electric Engineering" şirkətinin prezidenti Cao Huy aprelin 24-də Pekində Sumqayıt Kimya Sənaye Parkında şin zavodunun tikintisi ilə əlaqədar niyyət protokolunun imzalandığını bildirdi. Bundan əvvəl də ölkəmizdə müxtəlif sahələrə dair bir neçə layihəni həyata keçirdiklərini deyən Cao Huy Azərbaycandakı investisiya mühitindən, xarici sərmayədarlar üçün yaradılan şəraitdən razı qaldıqlarını vurğuladı və buna görə dövlətimizin başçısına təşəkkür etdi.

Prezident İlham Əliyev qeyri-neft sektorunun inkişafının ölkəmizdə prioritet sahə olduğunu deyərək dünən müxtəlif sahələrdə əməkdaşlığa dair 10 sənədin imzalandığını, bununla da Azərbaycanın sənaye sahəsinə çoxlu sərmayənin yatırılacağını bildirdi. Sumqayıt Kimya Sənaye Parkında xüsusi vergi rejimlərinin tətbiq edildiyini, bunun isə xarici sərmayədarlar üçün daha cəlbedici olduğunu deyən dövlətimizin başçısı "China National Electric Engineering" şirkətinin növbəti rezident kimi Kimya Sənaye Parkında öz müəssisəsini yaratmasını yüksək qiymətləndirdi, bu müəssisənin Azərbaycanın ixrac imkanlarını artıracağını bildirdi. Dövlətimizin başçısı ölkəmizdə yaxşı sərmayə imkanlarının olduğunu, Dünya Bankının "Doing Business" hesabatına görə Azərbaycanın 32 pillə irəliləyərək dünyada ən çox islahat həyata keçirən 10 ölkə sırasında olduğunu vurğuladı. Bununla da Azərbaycanın böyük tərəqqiyə nail olduğunu deyən Prezident İlham Əliyev ölkəmizdə xarici sərmayələrin yüksək səviyyədə qorunduğunu, bunun xarici investorlar üçün ölkəmizin cəlbediciliyini artırdığını vurğuladı.

Həmin gün Prezident İlham Əliyev aprelin 25-də Pekində "China Poly Group" Korporasiyasının sədri Su Nianşa ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, korporasiyanın sədri Su Nianşa Dünya İqtisadi Forumu çərçivəsində Davosda Azərbaycan Prezidenti ilə görüşünü xatırlayaraq bu görüşün onda böyük təəssürat yaratdığını bildirdi. O, rəhbərlik etdiyi şirkətin Azərbaycanla bir sıra sahələrdə əməkdaşlıq qurduğunu və ölkəmizdə fəaliyyətlərini genişləndirməkdə maraqlı olduqlarını söylədi.

Prezident İlham Əliyev Azərbaycanda sənaye müəssisələrinin yaradılması, kənd təsərrüfatı, İKT, turizm və digər sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu qeyd etdi. Son illərdə turizm sektorunda böyük inkişafın və artımın müşahidə edildiyini deyən dövlətimizin başçısı viza rejiminin sadələşdirilməsi və elektron vizanın tətbiqi sayəsində Çindən ölkəmizə turist axınının sürətləndiyini bildirdi. Söhbət zamanı əməkdaşlığın müxtəlif sahələri ilə bağlı geniş fikir mübadiləsi aparıldı.



# Heydər Əliyev Fondu ölkəmizdə uşaq müəssisələrinin yüksək tələblər səviyyəsində qurulması üçün mühüm işlər görür

*Birinci vitse-prezident Mehriban Əliyeva Buzovnadakı 229 saylı uşaq bağçasında, Mərdəkandakı gimnaziyada və 32 saylı Laçın rayon məktəbində mövcud şəraitlə tanış olub*

***Aprelin 25-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Xəzər rayonunun Buzovna qəsəbəsində 229 saylı körpələr evi-uşaq bağçasında, Mərdəkan qəsəbəsində Süleyman Rüstəm adına xarici dillər təmayüllü gimnaziyada və gimnaziyanın ikinci korpusunda müvəqqəti fəaliyyət göstərən 32 saylı Laçın rayon tam orta məktəbində mövcud şəraitlə tanış olub.***



AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva əvvəlcə Xəzər rayonunun Buzovna qəsəbəsində 229 saylı körpələr evi-uşaq bağçasına gəldi. Bağçanın müdiri Ellada Səlimova məktəbəqədər təhsil müəssisəsi barədə Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verdi. Bildirildi ki, bu bina 1836-cı ildə tikilib. 1957-ci ildən bina bağça kimi fəaliyyətə başlayıb. Burada sonuncu dəfə təmir işləri 2006-2007-ci illərdə həyata keçirilib.









Birinci vitse-prezident Mehriban Əliyeva uşaq bağçası-körpələr evindəki uşaqlarla görüşdü, onlarla söhbət etdi, balacaların bacarıqları ilə maraqlandı, arzularını soruşdu. Uşaqlar da Birinci vitse-prezidentin ətrafına toplaşaraq böyük məmnuniyyətlə öz istəkləri ilə bölüşdülər, məharətlərini nümayiş etdirdilər, rəqs edib, mahnılar oxudular, şeirlər söylədilər.

Məlumat verildi ki, 75 uşaq yerlik məktəbəqədər təhsil müəssisəsində balacaların təlim-tərbiyəsi ilə 27 nəfərdən ibarət pedaqoji heyət məşğul olur. Dörd qrupdan ibarət bağçada 2 yaşdan 6 yaşadək uşaqlar tərbiyə olunur və ilkin biliklərə yiyələnirlər.

Birinci vitse-prezident yuxarı yaş qrupundakı uşaqların məktəbə hazırlığı ilə də maraqlandı.

Ölkəmizdə uşaq müəssisələrinin yüksək tələblər səviyyəsində qurulması istiqamətində dövlətin gördüyü işlərə Heydər Əliyev Fondu da böyük töhfələr verir. 2014-cü ilin fevral ayında Fondun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramının təqdimatı keçirilib və ölkədə yeni bağçaların inşasına ehtiyac olduğu müəyyənləşdirilib. Həmin vaxtdan Fond ölkəmizdəki məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulması, yeni, müasir uşaq bağçalarının inşası sahəsindəki fəaliyyətini daha da genişləndirib.

***

Sonra Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Mərdəkan qəsəbəsində Süleyman Rüstəm adına xarici dillər təmayüllü gimnaziyaya gəldi.

Gimnaziyanın direktoru Ənvər Mustafayev məlumat verdi ki, 1960-cı ildə istifadəyə verilən təhsil ocağı indiyədək heç vaxt əsaslı şəkildə təmir edilməyib. Əvvəllər internat tipli olan təhsil müəssisəsi 2010-cu ildən xarici dillər təmayüllü gimnaziya kimi fəaliyyət göstərir. İki korpusdan ibarət məktəbdə 50 sinif otağı, idman və akt zalları, emalatxanalar mövcuddur.

Məktəbin sinif otaqları ilə yaxından tanış olan Mehriban Əliyevaya bildirildi ki, gimnaziyada 5-11-ci siniflər üzrə tədris aparılır. Müəssisədə 609 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə təqribən 70 nəfərdən ibarət pedaqoji heyət məşğul olur. Məktəbdə ingilis, ərəb, fars və rus dilləri tədris edilir.

Azərbaycanın Birinci vitse-prezidenti şagirdlərlə söhbət etdi, onlara dərslərində uğurlar arzulayaraq dedi:

- Sizdə təhsilə, elmə, biliyə həvəs var. Siz Azərbaycanın ümidisiniz, ona görə yaxşı oxumalısınız. Gələcəkdə Azərbaycanın qurucuları siz olacaqsınız. Bilirəm, sizin məktəbinizin hər zaman yaxşı göstəriciləri olub. Uğurlar arzulayıram. Sağ olun.

Bildirildi ki, 2017-2018-ci tədris ilində məktəbi 49 məzun bitirib və onlardan 45-i Azərbaycanın ali məktəblərinə qəbul olunub. Qəbul imtahanlarında məktəb üzrə 3 nəfər 600-dən yuxarı bal toplayıb.

***

Daha sonra Birinci vitse-prezident Mehriban Əliyeva gimnaziyanın ikinci korpusunda müvəqqəti fəaliyyət göstərən 32 saylı Laçın rayon tam orta məktəbində mövcud şəraitlə də tanış oldu.

Məktəbin direktoru Samirə Həsənova Azərbaycanın Birinci vitse-prezidentinə məlumat verdi ki, təhsil ocağı 1993-cü ildən bu binada fəaliyyət göstərir. Gimnaziyanın ikinci korpusunun 3-cü mərtəbəsində yerləşən məktəbdə əsasən məcburi köçkün ailələrindən olan, həmçinin Xəzər rayonunda yaşayan uşaqlar təhsil alırlar.

Sinif otaqlarına baş çəkən Mehriban Əliyeva şagirdlərlə səmimi söhbət etdi, onlarla şəkil çəkdirdi.

Diqqətə çatdırıldı ki, hazırda məktəbdə 170 şagirdin təlim-tərbiyəsi ilə 25 müəllim, 10 texniki işçi məşğul olur. 2017-2018-ci tədris ilində məktəbi 9 məzun bitirib və onlardan 7-si yüksək nəticə göstərərək, Azərbaycanın ali məktəblərinə qəbul olunub.

Xanım Mehriban Əliyeva Xəzər rayonunda məskunlaşan məcburi köçkünlər üçün yaradılan şəraitlə maraqlandı, dövlətin bu sahəyə hər zaman xüsusi diqqət yetirdiyini bildirdi.

Birinci vitse-prezident Mehriban Əliyeva Buzovna qəsəbəsindəki körpələr-evi uşaq bağçasında, Mərdəkan qəsəbəsindəki Süleyman Rüstəm adına xarici dillər təmayüllü gimnaziyada və gimnaziyanın ikinci korpusunda müvəqqəti fəaliyyət göstərən 32 saylı Laçın rayon tam orta məktəbində şəraitin yaxşılaşdırılması istiqamətində müvafiq tapşırıqlarını verdi.

# Akademik Zərifə Əliyevanın adı Azərbaycanda hər zaman fəxrlə, sonsuz qürur hissi ilə səslənir

***Aprelin 25-də Yeni Azərbaycan Partiyasının (YAP) Qadınlar Şurası görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 96-cı ildönümü münasibətilə tədbir təşkil edib.***




AZƏRTAC xəbər verir ki, əvvəlcə akademik Zərifə Əliyevanın həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunub.



YAP Qadınlar Şurasının sədri, Bakı Slavyan Universitetinin rektoru Nurlana Əliyeva akademik Zərifə xanım Əliyevanın elmi nailiyyətlərindən, onun peşəkar həkim, fəal ictimai xadim kimi fəaliyyətindən danışıb. Bildirib ki, Zərifə Əliyeva həmvətənlərinin qayğısına qalan humanist insan idi. Onun həyat ideyaları və şəxsiyyəti bu gün də müasir Azərbaycan gəncliyi üçün əsl nümunədir. Azərbaycan xalqına xas müsbət keyfiyyətlər, ali dəyərlər Zərifə Əliyevanın şəxsiyyətində cəmləşmişdi. İnsanlara nur bəxş edən, qayğıkeşliyi, nəcibliyi ilə könüllərdə özünə əbədi yer qazanan Zərifə xanım tibb elminin ən uca pillələrinə yüksəlməklə yanaşı, həm də nümunəvi bir həyat yolu keçib.




Azərbaycan Respublikası Prezidenti Katibliyinin rəisi-Prezidentin köməkçisi Dilarə Seyidzadə Zərifə xanım Əliyevanın keçdiyi zəngin həyat yolundan danışıb, onunla bağlı xatirələrini bölüşüb. Bildirib ki, Zərifə xanımın həyatı hər bir azərbaycanlı üçün nümunədir. O, əsl azərbaycanlı xanım nümunəsidir. Zərifə xanımı yaxından tanıyanlar onun ləyaqətli, insanpərvər, çox xeyirxah, mehriban bir qadın olduğunu yaxşı xatırlayırlar. Zərifə xanım hamının dərdini, problemini özününkü hesab etməyi bacarırdı. Çünki hər şeydən əvvəl, insanları sevirdi. O, həm ailəsində, həm də peşəsində nümunə göstərirdi. Bu müdrik, ziyalı, alicənab qadının keçdiyi şərəfli ömür yolu hər bir azərbaycanlı qadın üçün məktəbdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova bildirib ki, akademik Zərifə Əliyeva təkcə respublikamızda deyil, beynəlxalq aləmdə də tanınmış alim, ziyalı, ictimai xadim kimi dəyərləndirilir. Onun fəaliyyəti bizim üçün əsl nümunədir. Görkəmli alim öz qayğıkeşliyi və səmimiyyəti ilə onu əhatə edən insanların rəğbətini, ehtiramını qazanmışdı. İnkişaf etdirdiyi elm sahəsinin davamçıları bu gün də alimin irsindən faydalanırlar. Zərifə xanım Əliyevanın adı Azərbaycanda hər zaman fəxrlə, sonsuz qürur hissi ilə səslənir.

Milli Məclisin ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı deyib ki, akademik Zərifə Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yazdığı fundamental əsərlər nəinki Azərbaycan, eləcə də dünya tibb elminin tarixində yeni səhifələr açıb. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir. Zərifə xanım elmi-pedaqoji fəaliyyətində təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməyərək, yüksəkixtisaslı gənc alim kadrların yetişdirilməsi və oftalmoloq həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirib.

Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva çıxış edərək böyük alim və insan Zərifə xanım Əliyevanın qəlbən təmiz, ruhən nəcib, sözün həqiqi mənasında, peşəsinin vurğunu olduğunu vurğulayıb. O, öz elmi-praktik yaradıcılığı, təcrübəsi, axtarışları və ictimai fəaliyyəti ilə oftalmologiya elminə əvəzsiz töhfələr verib, təmasda olduğu hər bir insanın xatirəsində silinməz iz buraxıb.

YAP Gəncə şəhər təşkilatı Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Pərvin Kərimzadə gözəl insan, qayğıkeş ana olan Zərifə xanım Əliyevanın sənətinə vurğun, yüksək mənəvi-etik davranışa malik həkim və pedaqoq kimi həmişə xalqımızın qəlbində yaşayacağını bildirib. O qeyd edib ki, Zərifə Əliyeva yaxşı ana, vəfalı ömür-gün yoldaşı, intellektual keyfiyyətləri cəm halda özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş həkim-oftalmoloq, bütün müsbət keyfiyyətləri özündə cəmləşdirən bir insan kimi yaddaşlara əbədi həkk olunub.

# Azərbaycan Prezidentinin Çin rəsmiləri ilə görüşləri yerli KİV-lər tərəfindən geniş işıqlandırılıb




Çin Xalq Respublikasının kütləvi informasiya vasitələri Azərbaycan Prezidenti İlham Əliyevin 2-ci "Bir kəmər, bir yol" beynəlxalq forumunda iştirak üçün Pekinə səfərini və keçirdiyi görüşlərə geniş yer ayırıb.

AZƏRTAC xəbər verir ki, dünyanın ən nüfuzlu informasiya agentliklərindən biri olan Sinxua, geniş oxucu şəbəkəsinə malik gündəlik rəsmi "Jenmin Jibao" qəzeti, bir milyard tamaşaçı auditoriyası olan Çin Mərkəzi Televiziyası (CCTV), nüfuzlu "China Daily" qəzeti, 50-dən çox dildə yayımlanan Çin milli radiosu, digər qəzet və xəbər saytları Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin, Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, Çin Xalq Siyasi Məşvərət Şurasının sədri Van Yanla görüşlərinə dair bir neçə dəfə xəbərlər verib, reportajlar yayımlayıblar.







Materiallarda Azərbaycanın Avrasiya regionunda Çinin vacib tərəfdaşı olmasından, ölkəmizin "Bir kəmər, bir yol" təşəbbüsündə fəal iştirakından bəhs edilir. Qeyd olunub ki, iki ölkə arasında münasibətlər müxtəlif sahələrdə uğurla inkişaf edir. "Bir kəmər, bir yol" strategiyası iki ölkənin əməkdaşlığı üçün yeni və geniş imkanlar yaradır.

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçilərinin respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, aprelin 25-də Gəncə şəhəri, Goranboy, Qobustan, Samux və Zaqatala rayonlarında görüşləri keçirilib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, digər müraciətlər isə operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün nəzarətə götürülüb.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Bütün bunlar, ilk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Dövlətimizin başçısının da dediyi kimi, yürüdülən siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması dayanır. Son vaxtlarda imzalanan fərman və sərəncamlar, sosial-iqtisadi sahədə aparılan islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır. Həmçinin görüşlərdə məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına əməl olunmasının vacibliyi bir daha vurğulanıb. Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Bakıda "Dinlərarası dialoq və radikalizmlə mübarizə" mövzusunda beynəlxalq konfrans keçirilir



**Aprelin 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK), Avropa İttifaqının Bakıdakı nümayəndəliyinin və ADA Universitetinin birgə təşkilatçılığı ilə "Dinlərarası dialoq və radikalizmlə mübarizə" mövzusunda ikinci beynəlxalq konfrans öz işinə başlayıb.**

AZƏRTAC xəbər verir ki, ADA Universitetində keçirilən tədbirdə əvvəlcə Yeni Zelandiyada və Şri-Lankada terror aktları nəticəsində həyatını itirmiş insanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın moderatoru olan Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbər müavini Denis Daniilidis bildirib ki, son günlər Yeni Zelandiyada və Şri-Lankada baş verən hadisələr dini radikalizmlə mübarizənin hələ də başa çatmadığını göstərir. Bu baxımdan bu cür konfransların əhəmiyyətinə toxunan D.Daniilidis dini ayrı-seçkiliyin gücləndiyi müasir dövrdə Azərbaycanın öz multikultural və dini tolerantlıq dəyərlərini, eləcə də mədəniyyətlər və dinlər arasında əməkdaşlıq təcrübəsini dünya ölkələri ilə bölüşmək niyyətini yüksək qiymətləndirib.

Konfransda çıxış edən DQİDK-nın sədri Mübariz Qurbanlı mövzunun aktuallığını vurğulayıb. Bildirib ki, Yeni Zelandiya, Şri-Lankada törədilən terror aktlarına qarşı mübarizə bəşəriyyətin qarşısında duran ən əsas məsələlərdəndir. Müxtəlif dinlərin və mədəniyyətlərin birgəyaşayışına nümunə olacaq ölkələr arasında Azərbaycan çox mühüm yer tutur. Ölkəmizdə multikultural dəyərlər dövlət səviyyəsində qorunur. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizdə tolerant dəyərlər ciddi mühafizə olunur. Azərbaycanda bütün dini inanclara, onların mənsublarına hörmətlə yanaşılır. Ölkə əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, burada xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh, əmin-amanlıq şəraitində birgə yaşayırlar. Eyni zamanda, ölkə ərazisində mövcud olan İslam dini abidələri ilə yanaşı, digər dinlərə aid ibadət ocaqları maddi-mənəvi irs kimi qorunub saxlanılır. Azərbaycanda 33 qeyri-müsəlman dini icması fəaliyyət göstərir.

Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankaukas belə konfransların keçirilməsinin zəruriliyini qeyd edib. Bildirib ki, artıq ikinci dəfədir keçirilən bu konfrans tərəflərin müsbət təcrübə qazanmasına imkan yaradır. Nümayəndəliyin rəhbəri Yeni Zelandiyada və Şri-Lankada baş vermiş dəhşətli hadisələri xatırladaraq deyib ki, bu cür hadisələrin qarşısının alınması üçün hər kəs səylərini birləşdirməlidir.



Azərbaycanla dini sahədə əməkdaşlığa toxunan Kestutis Yankauskas vurğulayıb ki, Azərbaycandakı dini liderlərin Brüsselə səfəri təşkil edilib. O, həmçinin mayın əvvəlində Bakıda "Imagine" tolerantlıq festivalının keçiriləcəyini deyib və bu tədbirin müxtəlifliyə və tolerantlığa töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib ki, ekstremizmin qarşısını almaq üçün hər bir ölkə öz təcrübəsini bölüşməli, təbliğat aparmalıdır. Bundan başqa, dini radikalizmin yaranmasının səbəbləri araşdırılmalıdır. Əks halda, nəticə əldə etmək çətin olacaq. Əgər bir ölkənin qanunvericiliyində dini dözümlülük, dini etiqad azadlığının qorunması məsələləri öz əksini tapmayıbsa, həmin ölkədə dini radikalizm meyilləri olacaq. Azərbaycanın Konstitusiyasında dini etiqad azadlığının qorunması ilə bağlı müddəalar öz əksini tapıb. Milli Məclisdə dini ekstremizmin aradan qaldırılması ilə bağlı qanun qəbul olunub.

Siyavuş Novruzov deyib ki, dini etiqad azadlığının təmin edilməsi vacibdir. Bunun əksi dini radikalizmə gətirən əsas səbəblərdən biridir. Din xadimləri bu məsələdə aparıcı rol oynamalıdır. Onlar təbliğat apararaq insanları qardaşlığa, bərabərliyə çağırmalıdır.

Vurğulanıb ki, hər hansı terrorçu qruplaşmanı dinlə əlaqələndirmək olmaz. Dünyada 60-dan çox müxtəlif terror qrupu var. Onların əksəriyyətinin adı da məlumdur və heç biri dinlə əlaqəli deyil.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə qeyd edib ki, konfransın bu təhsil ocağında keçirilməsi heç də təsadüfi deyil. Çünki gənclər arasında dini tolerantlığın təbliği mühüm əhəmiyyət kəsb edir. O diqqətə çatdırıb ki, ADA universitetində təhsil alan gənclərin müxtəlif dinlərə aid ibadətgahlarla tanış olmasına, eləcə də onlar arasında multikultural dəyərlərin təbliğinə xüsusi önəm verilir.

Fransa hökumətinin dini işlər üzrə məsləhətçisi Jan-Kristof Posel bildirib ki, dünyada terrorçuluqdan, radikallıqdan sığortalanan ölkə yoxdur. Din anlayışı ilə dini dona bürünmüş radikalizm arasında fərq qoyulmalıdır. Dinlərarası dialoqun vacibliyinə toxunan Fransa rəsmisi bunun əks tərəflərin fikirlərini, istəklərini, fərqlərini üzə çıxarmağa imkan yaratdığını deyib. O, eyni zamanda, dövlətin dini nəzarətdə saxlamasının arzu olunmadığını, belə müdaxilənin dinin mahiyyətindəki təməl hüquq və azadlıqları poza biləcəyini dilə gətirib. Qeyd edib ki, zorakılıqla din arasında fərq qoyulmalıdır. Dinlər bu məsələdə günahsızdır. Biz gənclərin dini düzgün öyrənmələri üçün yollar axtarmalıyıq. Bizim cəmiyyətlərimiz plüralist cəmiyyətlərdir, müxtəlif konfessiyalardan ibarətdir. Dini konfessiyaları birgə yanaşı yaşamağa təşviq etmək lazımdır. Biz bu fərqlilikləri problem kimi yox, zənginliyin nümunəsi kimi qəbul etməliyik.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədr müavini Qəmər Cavadlı idarənin tarixi, hüquqi statusu və fəaliyyəti barədə məlumat verib. Bildirib ki, QMİ 1823-cü ildə rəsmi dini təşkilat kimi yaranıb. Bu illər ərzində QMİ-nin ən səmərəli fəaliyyəti müstəqillik dövrünə təsadüf edir. Azərbaycan müstəqillik qazanandan sonra dövlət-din münasibətləri də inkişaf edib. O, eyni zamanda, QMİ-nin fəaliyyətində mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına xüsusi önəm verdiyini diqqətə çatdırıb.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası İdarəsinin nümayəndəsi Konstantin Pominov, Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Melih Yevdayev, Roma Katolik Kilsəsinin ordinarisi Vladimir Fekete Azərbaycanın çoxmillətli və çoxdinli ölkə olduğunu, bu ölkənin milli siyasətinin müxtəlif millətlərin, etnik qrupların, dini azlıqların birgə yanaşı yaşaması, dözümlülük prinsipləri əsasında müəyyənləşdirildiyini söyləyiblər. Qeyd olunub ki, Azərbaycanda tarixən heç vaxt milli və dini zəmində ayrı-seçkilik, qarşıdurma olmayıb. Burada qarşılıqlı etimada, hörmətə əsaslanan mütərəqqi milli-mədəni, həmçinin dini münasibətlər mövcuddur.

Konfrans işini aprelin 26-da "Dini icmalar sülhün carçısı kimi", "Dünyəvi dövlətlərdə dövlət-din münasibətləri", "Zorakı ekstremizmin qarşısının alınmasında maarifləndirmə tədbirləri" mövzularında panellərlə davam etdirəcək.

## "Hər hansı qurumun "dövlət" kimi tanınması ABŞ-da ştat qanunverici orqanın səlahiyyətləri xaricindədir"



ABŞ-ın Kolorado ştatının Senatı tərəfindən qondarma erməni soyqırımı ilə bağlı qətnamənin qəbulu və bu qətnamədə ölkəmizin işğal edilmiş torpaqlarında yaradılmış qondarma qurumun tanınması ilə bağlı məlumat yayılıb.

AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva bu məsələyə münasibət bildirərək deyib: "Aprelin 24-də Kolorado ştatının 35 nəfərlik Senatı qondarma erməni soyqırımı ilə bağlı qətnamə qəbul edib. Bu qətnamədə Ermənistan və qondarma "artsaxın" Türkiyə və Azərbaycan tərəfindən "blokadasına" istinad edilir və guya ki, Naxçıvan Muxtar Respublikasında erməni "xristian irsinin" mədəni soyqırımının törədildiyi iddia edilir.

Qeyd etmək istərdik ki, bəzi media nümayəndələri qətnamədə işğal altındakı torpaqlarımızda yaradılmış qondarma quruma istinadın guya həmin qurumun tanınması kimi təqdim etməyə cəhd etmişlər. Vurğulamaq istərdik ki, sözügedən qətnamənin mətni onu ifadə etmir və hər hansı bir qurumun "dövlət" kimi tanınması, ümumiyyətlə ştat qanunverici orqanın səlahiyyətləri xaricindədir. Onu da bildirmək istərdik ki, praktiki və hüquqi əhəmiyyəti olmayan belə simvolik qətnamələrin ştatlar üçün də hər hansı bir nəticə doğurmadığı üçün qısa prosedurla qəbulu mümkün olur. Ölkəmizin ABŞ-dakı səfirliyi tərəfindən Kolorado Senatının rəhbərliyi və hər bir üzvünə ölkəmizlə bağlı yol verilmiş ciddi təhriflər və yanlışlıqların aradan qaldırılmasına çağıran məktublar göndərilib və müvafiq görüşlərin keçirilməsi nəzərdə tutulub.

## PKK terror təşkilatı Suriyada erməni taboru yaradıb



PKK terror təşkilatı Suriyada işğal etdikləri ərazilərdə 1915-ci il hadisələrini anmaq məqsədilə Türkiyəyə qarşı erməni taboru yaradıb.

AZƏRTAC xəbər verir ki, xarici vətəndaşlar, o cümlədən ermənilərdən ibarət 90 nəfərlik tabora 2017-ci ildə ölən erməni terrorçu Nubar Ozanyanın adı verilib. Taborun quruluş toplantısında ermənilər tərəfindən Azərbaycanda törədilmiş qətliamlarda iştirak edən, sonralar isə ASALA terror təşkilatına üzv olan terroristlər də iştirak ediblər.

# Azərbaycan nəsrinin görkəmli nümayəndəsi

## *Bu gün böyük pedaqoq, alim, istedadlı yazıçı Mir Cəlal Paşayevin anadan olmasından 111 il ötür*

***XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında misilsiz xidmətlər göstərmiş xeyirxah insan, görkəmli yazıçı, böyük alim Mir Cəlal Paşayevin bu gün doğum günüdür. 26 aprel tarixində dünyaya gələn ziyalı xalqımızın yaddaşında özünə əbədiyaşarlıq qazanmışdır.***



Mir Cəlal həm gözəl hekayə ustası, sanballı romanlar, povestlər müəllifi kimi tanınır, həm ədəbiyyatımızın yaradıcılarından biri, həm də gözəl ədəbiyyatşünas alim kimi qiymətləndirilir. Mir Cəlal əli qələm tutan gündən ömrünün sonuna qədər həm bədii ədəbiyyat, həm də ədəbiyyatşünaslıq sahəsində eyni həvəs və coşqunluqla, eyni ardıcıllıq və uğurla yorğunluq bilmədən çalışmış, zəngin və məhsuldar yaradıcılıq yolu keçərək yüzdən artıq kitab çap etdirmişdir.

Mir Cəlal Əli oğlu Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanın Əndəbil kəndində anadan olmuşdur. Sonralar ailəsi Gəncə şəhərinə köçmüş, ibtidai təhsilini burada almış, uşaqlıq və gənclik illərini bu şəhərdə keçirmişdir. 1924-1928-ci illərdə Gəncə Darülmüəllimində oxumuş, oranı bitirdikdən sonra Gədəbəy 7 illik məktəbinə müəllim göndərilmişdir. 1929-1930-cu illərdə 1 saylı Gəncə şəhər məktəbində direktor vəzifəsində çalışmışdır. 1930-1931-ci illərdə Kazan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakultəsində oxumuş, 1932-ci ildə Bakıya qayıdaraq Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitunun aspiranturasında təhsilini davam etdirmiş, 1933-cü ildə SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin ictimai elmlər bölməsinə elmi işçi vəzifəsinə götürülmüşdür. 1936-1941-ci illərdə Pedaqoji İnstitutda və Dövlət Universitetində müəllimlik etmişdir. Mir Cəlal 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" adlı əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru, alimlik dərəcəsi almışdır.

Görkəmli nasir Mir Cəlal yaradıcılığının mövzu rəngarəngliyi, üslub xüsusiyyətləri, bütünlükdə orijinallığı ilə Azərbaycan yazıçıları içərisində özünəməxsus yer tutur. Mir Cəlal ədəbiyyatımızda gözəl hekayələr ustası, rəngarəng mövzulara həsr olunmuş romanlar yaradıcısı, ədəbiyyatımızın klassik və müasir dövrünü, müxtəlif problemlərini işıqlandıran onlarla dəyərli tədqiqat əsərinin müəllifi kimi tanınmışdır.

Mir Cəlal bədii yaradıcılığa 1928-ci ildən başlamışdır. İlk hekayə və oçerkləri 1930-cu ildə çap olunmuşdur. İlk hekayə və oçerkləri "Qızıl Gəncə", "Ədəbiyyat cəbhəsində", "Hücum" jurnallarında və "Gənc işçi" qəzetində dərc olunmuşdur. Dövrün ruhuna uyğun olaraq "Sağlam yollarda" adlandırdığı ilk oçerklər kitabı 1932-ci ildə çap olunmuşdur. O, ədəbiyyat tarixinə, tənqid və ədəbiyyatşünaslığa dair bir sıra qiymətli əsərin müəllifidir. Mir Cəlal diqqətəlayiq romanlar müəllifi kimi də tanınmışdır. "Dirilən adam" və "Bir gəncin manifesti" romanları yazıçının dəyərli əsərlərindəndir. "Bir gəncin manifesti" Mir Cəlal yaradıcılığının bütün gözəl keyfiyyətlərinin vəhdətidir, deyən Bəxtiyar Vahabzadə bunu nəinki Mir Cəlalın, Azərbaycan nəsrinin ən gözəl nümunələrindən biri kimi qiymətləndirirdi. Sonralar Mir Cəlal Azərbaycan həyatının aktual problemlərinə həsr olumuş "Açıq kitab", "Təzə şəhər", "Yolumuz hayanadır?" kimi romanlarını yazır. Gözəl roman ustadı kimi tanınan Mir Cəlal haqqında tanınmış ədəbiyyatşünas Jak Rıkaçev belə yazırdı: "Mir Cəlal sənətkardır, yaradıcıdır. Onun romanının hər bir sözü öz avtobioqrafiyasının bir hissəsi kimi görünür, canlı və səmimi həyəcanı dərhal oxucuya təsir edir..."

Bədii ədəbiyyatın müxtəlif janrlarına müraciət edən Mir Cəlal yaradıcılığında kiçik hekayələr xüsusi yer tutur. 1940-cı ildə Mir Cəlalın hekayələrinin rus dilinə Əziz Şərif tərəfindən tərcümə olunması gözəl bir təşəbbüs kimi qiymətləndirilməlidir. Ədibin istedadlı gənclərə olan məhəbbətini, analıq şərəfini və uşaqlara qayğı məsələsini ürəklə tərənnüm etdiyi "Bostan oğrusu", "Yanlış barmaqlar", "Mərkəz adamı" kimi hekayələr tərbiyəvi əhəmiyyətli olduğu üçün yüksək qiymətləndirilmişdir. O, "Pərzad", "Qaymaq", "Dost görüşü", "Qonaqpərəst" kimi hekayələrində Azərbaycan xalq adət və ənənələri ilə bağlı motivlərə xüsusi diqqət yetirib, hekayələrin həyat və məişətlə üzvi əlaqəsindən bəhs edir. Böyük Vətən müharibəsinə, ölkənin müdafiəsinə həsr olunan hekayələr mövzu orjinallığı, mübarizə pafosu və üslubuna görə Mir Cəlalın yaradıcılığında xüsusi mərhələdir. Böyük vətən müharibəsi dövründə "hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı ədəbiyyatın da istiqamətini, yaradıcılıq pafosunu və inkişaf yolunu müəyyənləşdirən xarakterik əlamət oldu.

Böyük Vətən müharibəsi Mir Cəlalın ədəbi-elmi fəaliyyətində yeni səhifələr açır. Müharibənin əvvəllərində Uzaq Şərqdəki ordu hissələrinə gedən, habelə döyüşən ordunun həyatı ilə yaxından tanış olan ədib çoxlu oçerk, hekayə və publisist yazıları ilə nəzəri cəlb edir. Mir Cəlal "Yollar", "Axşam səfəri", "Atlı", "Snayper" hekayələrinin mövzusunu bilavasitə cəbhə həyatından, müharibə səhnələrindən götürülmüş və səciyyəvi fəaliyyət prosesində açılan döyüşçü surəti yaratmağa çalışmışdır. Böyük Vətən müharibəsinə, ölkənin müdafiəsinə həsr olunan hekayələr mövzu orijinallığı, mübarizə pafosu və üslubuna görə Mir Cəlalın yaradıcılığında xüsusi mərhələdir. Səməd Vurğun Onun əsərlərinin təsir gücündən yazarkən belə qeyd edir: "Aldığımız cəbhə məktubunda bir döyüşçü yazır ki, "Vətən yaraları" hekayəsini oxuduqdan sonra mən düşmənə qarşı daha kinli və amansız oldum".

Ədəbi fikrimizin tarixinə Mir Cəlal, həmçinin, görkəmli tənqidçi-ədəbiyyatşünas kimi də daxil olmuşdur. O, Azərbaycan ədəbiyyatının 1975-ci illərədək keçdiyi yola, sənətkarlıq, realizm və xəlqilik axtarışlarına, ədəbi prosesin mənzərəsinə, janrların vəziyyət və imkanlarına dair məzmunlu çıxışlar edir, məqalələr yazır, tədqiqat işləri aparırdı.

Mir Cəlal sadəcə bir ədib-müəllim deyildir, O, alimdir, ədəbiyyatşünasdır, elmi kadrlar yetişdirmək də Onun çoxcəhətli fəaliyyətinə daxildir. Müasir dövrümüzdə Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, Azərbaycanın əməkdar elm xadimi, yazıçı-alim Mir Cəlal Paşayevin ədəbi və ictimai fəaliyyəti, yaradıcılıq xüsusiyyətləri, əsərlərinin yaranma tarixi öyrənilir, Onun irsi gənc nəslə çatdırılır. Təsadüfi deyildir ki, bu gün təkcə Azərbaycanda deyil, Onun sərhədlərindən kənarda da görkəmli ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri müxtəlif dillərdə nəşr ediləərək maraqla oxunur.

Azərbaycan Respublikası Prezidentinin "UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" 2008-ci il 31 yanvar tarixli Sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilmişdir. Parisdə, UNESCO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilmişdir.

XX əsr Azərbaycan ədəbiyyatı və elminin inkişafında müstəsna xidmətləri olmuş Mir Cəlal Paşayevin 100 illiyinin UNESCO səviyyəsində qeyd edilməsi, ilk növbədə, Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür. İllər ötdükcə Mir Cəlal Paşayevin təkcə elmi irsi tədqiq edilmir, Onun həm də xeyirxahlığı, böyük və əlçatmaz müəllimliyi, bəşəriliyi heyranlıqla qarşılanır və sevilə-sevilə qəlblərdə özünə ucalıq abidəsi qurur. Ədibin bu zirvədəki yeri daim qalacaq və Onun mərhəmət sevgisi dünya durduqca yaşayacaqdır.

**ZÜMRÜD**

## "Jewish Journal" nəşrində minlərlə yəhudini Holokostdan xilas etmiş azərbaycanlı haqqında məqalə dərc olunub

***Amerikada çıxan "Jewish Journal" nəşrində Azərbaycan Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayevin "Minlərlə yəhudini Holokostdan xilas etmiş azərbaycanlı haqqında" sərlövhəli məqaləsi dərc olunub. AZƏRTAC xəbər verir ki, Fransanın nasistlər tərəfindən işğal edildiyi dövrdə Parisdə İranın konsulu olmuş, iranlı diplomat, mənşəcə Azərbaycandan olan Əbdülhüseyn Sərdari Qacar bu dövrdə neçə-neçə yəhudinin həyatını xilas edib.***

Müəllif yazır ki, 1789-1925-ci illərdə İranı idarə edən məşhur qacarlar sülaləsinə mənsub olan Əbdülhüseyn Sərdari Qacar İranın 30 milyonluq azərbaycanlılar icmasının üzvü idi. 1940-cı ilin sentyabr ayında nasist işğalçı qüvvələri Fransada yaşayan bütün yəhudilərin polisdə qeydiyyat alınmasını əmr etdilər. Sərdari Qacar Vişi hökumətinə məktubla müraciət edərək bildirib ki, həmin dövrdə Fransada yaşayan iranlı yəhudilər



JEWISH JOURNAL

April 24, 2019

**Azerbaijani Muslim who saved thousands of Jews from Holocaust**

BY MILIKH YEVDAYEV | APR 24, 2019 | BLOGS

When he began his diplomatic service in Paris, he was hoping to have a calm, unencumbered life as a diplomat in one of the world's most beautiful cities.

But very shortly after his arrival, this City of Love turned into a City of

JJ LATEST STORIES

A Chicago Space for LGBTQ Jews Becomes a 'Queer Yeshiva for Everybody'

NJ Mayor to Twitter User Complaining About Jews: 'Call the Police'

Teenage Jewish Brother and Sister from London Among Sri Lanka Bombing Victims

Israeli Minister Denounces Sanders for Calling Netanyahu Government 'Racist'

əslində öz mədəniyyətlərinə və qarışıq nikahlara görə farslarla yaxşı assimilyasiya olunublar və onlar yəhudi sayılmamalıdırlar. Əbdülhüseyn Sərdari Qacar yazırdı: "Aparılmış tədqiqatlara görə Mərkəzi Asiya yəhudiləri yalnız iudaizmin əsas mərasimlərinə riayət etdiklərinə görə yəhudi icmasına mənsubdurlar. Onlar öz qanına, dilinə və adətlərinə görə yerli irq ilə assimilyasiya olunur və qonşuları farslar və sartlar (özbəklər) kimi bioloji struktura malikdirlər".

Əbdülhüseyn Sərdari Qacar bu fikirləri dönə-dönə söyləyib və nəhayət, öz planını uğurla reallaşdıra bilib. Fransada bütün yəhudilər Davidin sarı ulduzunu daşımağa məcbur olanda və 75.000 yəhudi nasist ölüm düşərgələrinə göndəriləndə iranlı yəhudilər üçün istisna tətbiq edildi. Bundan əlavə, Sərdari Qacar öz hökumətinin razılığı olmadan yəhudilərə yeni İran pasportları verməyə başlayıb və beləliklə onlar Avropanı tərk etmək imkanı qazanıblar. Bu riskli addım sayəsində təqribən 3 min yəhudinin həyatını xilas etmək mümkün olub, çünki pasportlar bütöv ailələrə və onların dostlarına verilirdi.

Sərdari Qacarın xilas etdiyi yəhudilərin çoxu Los-Ancelesdə yaşayır. 2004-cü ildə onun bu nəcib hərəkəti Los-Ancelesdəki Simon Vizental adına Mərkəzdə qeyd edilib. Bu cəsur azərbaycanlının xatirəsini başqa yəhudi təşkilatları da yad ediblər. Müəllif M.Yevdayev məqalənin sonunda yazır: "Mən çox ümid edirəm ki, Simon Vizental Mərkəzi, ABŞ Holokost Xatirə Muzeyi və digər yəhudi müəssisələri axır ki, Sərdari Qacara lazımi qiymətini verəcək, onun Azərbaycan mənşəli olması etiraf ediləcək". Yəhudilərlə Azərbaycan xalqı 2000 ildir ki, dinc yanaşı yaşayır. Bu baxımdan Əbdülhüseyn Sərdari Qacarın mənşə etibarilə azərbaycanlı olması faktının tanınması çox vacibdir.

# Polad Bülbüloğlu: "Bakı əslində Qəhrəman şəhərdir"



Təəssüf ki, Bakıya Qəhrəman şəhər adı verilməyib, çünki formal baxımdan onun ərazisində döyüşlər olmayıb, lakin, əslində Bakı Qəhrəman şəhərdir, ona görə ki, məhz Bakının ərazisində neft uğrunda, yanacaq uğrunda, həyati əhəmiyyətli enerji uğrunda döyüşlər gedib. SİA xəbər verir ki, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu bu fikirləri Sankt-Peterburqda "Birlikdə qazanılan böyük Qələbə" devizi altında keçirilən IX Beynəlxalq Qaliblər Forumundakı çıxışında söyləyib.

P.Bülbüloğlu leninqradlıların blokada şəraitində göstərdiyi qəhrəmanlığı və əzmkarlığı qeyd edərək bir maraqlı epizod söyləyib: "1941-ci ilin oktyabr ayında blokadada olan Leninqradda, Ermitajda xalqlarımızın və mədəniyyətlərimizin münasibətlərində əlamətdar tarixi hadisə baş verib: dünya şöhrətli Azərbaycan şairi və filosofu Nizami Gəncəvinin 800 illik yubileyi keçirilib. Bu yubileyə ön cəbhədən tanınmış şərqşünaslar çağırılıb, dəvət olunmuş qonaqlar toplanıb. Səkkiz yüz il əvvəl yazılmış şeirlər qələbə himni kimi səslənib. O tarixi iclasın bütün iştirakçılarının nurlu xatirəsi qarşısında baş əyirik. Biz onları heç vaxt unutmayacağıq. İllər sonra, 2002-ci ili iyunun 9-da Sankt-Peterburqda Nizami Gəncəviyə abidə ucaldılıb. Rusiya Prezidenti Vladimir Putinin və Azərbaycan Prezidenti Heydər Əliyevin iştirakı ilə bu abidənin açılışı Sankt-Peterburq şəhərinin 300 illiyi ilə bir vaxta düşüb, abidə özü isə Azərbaycandan Sankt-Peterburqa hədiyyə olub".

Diplomat vurğulayıb ki, Böyük Vətən müharibəsində Qələbə birlik sayəsində qazanılıb. Qaliblər ordusunun sıralarında 600 mindən çox azərbaycanlı döyüşçü olub. Onların yarıdan çoxu cəbhədən qayıtmayıb. Müharibə illərində neftin və neft məhsullarının əsas təchizatçısı Azərbaycan olub. Ölkədə istehsal edilən bütün yanacağın 80 faizi Azərbaycan neftçiləri tərəfindən çıxarılırdı. Azərbaycan vətəndaşları öz şəxsi vəsaitləri hesabına 15 kiloqram qızıl, 952 kiloqram gümüş, 320 milyon rubl pul toplayıb Müdafiə Fonduna veriblər. Cəbhəyə 1 milyon 600 min vahiddən çox zəruri mallar, 125 vaqon isti paltar göndərilib. 1942-ci ilin yayına qədər Bakı müəssisələrindən təkcə Leninqrad üçün 2 vaqon sıxılmış kürü, 40 ton quru meyvə və şirə, digər qida məhsulları, habelə dava-dərman və sarğı materialları göndərilib. Azərbaycan ərazisində 87 batalyon, 1123 özünümüdafiə dəstəsi yaradılıb, 77-ci, 223-cü, 396-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqaz dağının ətəklərindən Baltikyanı bölgəyə, Şərqi Avropaya və Berlinə qədər döyüş yolu keçiblər. Böyük Vətən müharibəsində göstərdikləri qəhrəmanlıq və şücaətə görə Azərbaycandan olan 170 mindən çox döyüşçü orden və medallarla təltif edilib, 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Böyük Vətən müharibəsi illərində Bakıda və respublikanın digər şəhərlərində onlarca hərbi hospital fəaliyyət göstərib. Rəsmi məlumata görə, azərbaycanlı həkimlər 1,5 milyondan çox hərbi qulluqçunu həyata qaytarıb, onların bir qismi müharibədən sonra öz talelərini həmişəlik Azərbaycanla bağlayıb.

P.Bülbüloğlu deyib: "Sonda şəxsi xatirələrimi bölüşmək istərdim. Mənim atam Bülbül məşhur opera müğənnisi, SSRİ Xalq artisti, Stalin Mükafatı laureatı olub. Peşəsinin xüsusiyyəti ilə əlaqədar o, cəbhədə döyüşməyib. Böyük Vətən müharibəsi illərində Zaqafqaziya və Bryansk cəbhələrində konsertlər verib. Onun silahı vətənpərvər ruhlu mahnılar idi. Bülbül cəbhəni təkcə öz sənəti və çıxışları ilə dəstəkləmir, ona həm də maddi kömək edirdi. Atam iki dəfə şəxsi vəsaitlərini Müdafiə Fonduna köçürüb. Birinci dəfə cəbhəçi uşaqlarına kömək fonduna 100 min rubl, ikinci dəfə isə hərbi ehtiyaclar üçün 120 min rubl köçürüb, bunun cavabında Ali Baş Komandan Stalindən təşəkkür teleqramı alıb. Mən bu epizodları öz atamı bir daha xatırlamaq və bizim ümumi Qələbəmizə onun şəxsi töhfəsini vurğulamaq üçün danışmıram. Bülbül bütün mümkün qüvvələrdən və vasitələrdən istifadə etməklə Qələbə gününü yaxınlaşdıran milyonlarla sovet adamlarından biri olub".

Səfir onu da qeyd edib ki, o, Rusiyada yaradılmış "Pobeda" telekanalının Qəyyumlar Şurasına daxil edilib. O deyib: "Bu kanalın Qəyyumlar Şurasına daxil olmağıma görə çox şadam. Çünki var qüvvəmlə çalışacağam ki, gələcək nəsillər xalqlarımızın bu qələbəni nəyin bahasına qazanmasını heç vaxt unutmasınlar".

# "Azərbaycanın inkişafı Çinin diqqətini cəlb edir"



"Azərbaycan Prezidenti cənab İlham Əliyevin Çin Xalq Respublikasında yüksək səviyyəli tədbirdə iştirakı Azərbaycan dövlətinə verilən qiymətə bağlıdır. Çünki "Bir kəmər, bir yol" layihəsi şərqlə-qərbin birləşdirilməsini nəzərdə tutmaqla yanaşı, hər mərhələdə olan texniki, hüquqi, eləcə də məsuliyyət səviyyəsinin yüksək tələblərə cavab verməsini özündə əks etdirməklə bu gün günün əsas məsələlərindən hesab olunur". Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib.

Deputatın sözlərinə görə, bu gün Azərbaycanın bir dövlət kimi inkişafı, onun iqtisadiyyatının inkişafında qazandığı nailiyyətlər dünyanın böyük dövlətlərinin, o cümlədən Çinin diqqətini cəlb edir: "Heç də təsadüfi deyil ki, cənab Prezident səfərinin ilk günü Çinin rəhbəri tərəfindən qəbul edildi. Həm bu tədbirin gündəliyi, həm də Çin-Azərbaycan münasibətlərinin inkişafı ilə bağlı geniş fikir mübadiləsi aparıldı. Heç bir şübhə yoxdur ki, cənab Prezidentimizin bu tədbirdə iştirakı Azərbaycanın daha da geniş tanınmasına, ölkəmiz barəsində dünyanın daha geniş məlumatlar əldə etməsinə, ən əsası isə siyasi, iqtisadi əlaqələrin daha da genişlənməsinə gətirib çıxardacaqdır".

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikası Sədrinin dəvəti ilə 2-ci "Bir kəmər, bir yol" beynəlxalq forumunda iştirak etmək üçün aprelin 24-də bu ölkəyə işgüzar səfərə gəlib.









# Sankt-Peterburqda Qaliblərin Beynəlxalq Forumu keçirilib

Dünən Rusiyanın Şimal paytaxtı Sankt-Peterburqda, B.Yeltsin adına Prezident Kitabxanasında Böyük Vətən müharibəsində Leninqradın alman faşistlərinin blokadasından tam azad olunmasının 75-ci ildönümünə həsr edilmiş "Birlikdə qazanılan böyük qələbə" mövzusunda Qaliblərin Beynəlxalq Forumu keçirilib. SİA-nın xəbərinə görə, Avrasiya Tədqiqatları Fondu və "Şimal-Cənub" Politologiya Mərkəzinin MDB ölkələri Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun dəstəyi ilə təşkil etdikləri foruma 250-dən çox iştirakçı, o cümlədən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyevin rəhbərliyi ilə geniş tərkibdə nümayəndə heyəti qatılıb.

Tədbirdən öncə Forum iştirakçıları Sankt-Peterburqun faşist blokadasından azad olması şərəfinə ucaldılan memorial abidənin ziyarət edib, qarşısına əklil qoyublar.

Tədbirdə Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu, "Səs" Media Qrupun rəhbəri Bəhruz Quliyev və digər media və ictimai təşkilatların nümayəndələri tədbirdə iştirak ediblər. Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq məsələləri üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoyun moderatorluq etdiyi tədbirdə çıxış edən Sankt-Peterburq şəhərinin qubernatoru vəzifəsini müvəqqəti icra edən Aleksandr Dmitriyeviç Beqlov qonaqları salamlayıb və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Forum iştirakçılarına ünvanladığı təbrik məktubunu oxuyub.

Sonra Rusiya Federasiyası Prezidentinin xarici ölkələrlə milli və mədəni əlaqələr İdarəsinin rəisi V.A.Çernov, Rusiyanın Şimali Qafqaz işləri üzrə nazir müavini A.A.Qaqloyev, Böyük Vətən Müharibəri veteranı V.P.Vaseçkiy çıxış edərək alman faşistləri tərəfindən Leninqradın blokadaya alınmasından və bütün sovet xalqlarının birgə mübarizəsi nəticəsində Böyük Qələbənin əldə edilməsindən danışıblar.

Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu çıxışında bildirib ki, Azərbaycan xalqının 600 mindən çox mərd oğul və qızı ön cəbhələrdə rəşadətlə vuruşaraq qəhrəmanlıq göstəriblər. Döyüşlər zamanı 300 mindən çox azərbaycanlı həlak olub. Qeyd edib ki, Azərbaycan neftinin Böyük Vətən müharibəsində qələbənin qazanılmasında oynadığı rol böyükdür. Demək olar ki, döyüşə atılan hər bir tank və təyyarənin yanacağı Bakı nefti ilə təmin edilirdi. Azərbaycan xalqının Böyük Vətən müharibəsində rolu və xidməti misilsizdir.

Daha sonra Qırğızıstan Milli Elmlər Akademiyasının prezidenti M.C.Cumatayev, Rusiyanın "Axtarış hərəkatı"nın icraçı direktoru E.M.Çunayeva və digərləri çıxış ediblər. Tədbir "Arxa və ön cəbhələrin birliyi - Böyük Qələbənin təməlidir", "Axtarış - unutmamaqdır", "Müsir mediada tarixin saxtalaşdırılmasına qarşı atılan addımlar" adlı panellərdə davam etdiriləcək.

***Nailə Məhərrəmova***

# Azərbaycan-NATO: əməkdaşlıq perspektivləri və geosiyasi reallıqlar

***Şimali Atlantika Alyansının baş katibi Yens Stoltenberq Vaşinqtonda təşkilatın 70 illiyinə həsr edilmiş yubiley tədbirlərində Azərbaycanla bağlı maraqlı fikirlər ifadə edib. Onları təhlil edən ekspertlər NATO-nun Azərbaycanla əlaqələri inkişaf etdirmək niyyətinin olduğu qənaətinə gəlirlər. Doğrudan da, əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan-NATO əməkdaşlığı olduqca səmərəli inkişaf edir. Bu proses hər iki tərəfi qane edir. Regionun böyük dövlətlərinin maraqlarına toxunmur. Digər Cənubi Qafqaz dövlətlərindən fərqli olaraq, Azərbaycanın NATO istiqamətində atdığı heç bir addım qonşularda qıcıq yaratmır. Ancaq Ermənistan bu məsələdən də süni yararlanmağa çalışır. Ermənistan hakimiyyəti Azərbaycanın NATO ilə əməkdaşlıq etdiyinə görə bu təşkilatla əlaqə qurduğunu deyir. Bu, bir daha təsdiq edir ki, Ermənistan müstəqil siyasət yeridə bilmir. Daim başqalarının hərəkətlərinə "alternativ" olaraq səbatsız addımlar atır. Bu kimi məqamların fonunda Azərbaycan-NATO əlaqələrinin bir sıra aspektləri üzərində geniş dayanmaq lazım gəlir.***




## Cənubi Qafqaz siyasətinin formalaşması: Şimali Atlantika Alyansı və üç dövlət

Cənubi Qafqaz ölkələrinin NATO siyasəti bir sıra parametrlərinə görə bir-birindən ciddi surətdə fərqlənir. Bu, artıq bir neçə ildir ki, açıq surətdə görünür. Müstəqilliyin ilk illərində fərqlər elə də gözə çarpmırdı. Çünki həm sovetlər yenicə dağılmışdı, həm də NATO-nun özünün konkret kursu yox idi. Region ölkələri də hələlik hərbi sahədə götürəcəkləri istiqaməti dəqiqləşdirməmişdilər. Bu aspektdə Azərbaycan üçün yaranmış situasiya daha mürəkkəb idi.

Havadarlarının köməyi və ciddi hərbi dəstəyi ilə forpost Ermənistan Azərbaycana hücumlarını davam etdirirdi. Öz ordusu və hərbi doktrinası olmayan Azərbaycanın NATO ilə real əlaqələr qurmaq imkanı minimum idi. Hətta o dövrdə Azərbaycana rəhbərlik edənlərdən özümüzün ordumuzun olmasına ehtiyac görməyənlər də vardı. Onlar hələ də rus ordusunun himayəsinə sığınmağa çalışırdılar. Lakin Ulu öndərin hakimiyyətə qayıdışı ilə hər şey kökündən dəyişməyə başladı. Heydər Əliyev 1994-cü ilin may ayının 4-də Azərbaycan ilə NATO arasında tərəfdaşlığın əsasını qoyan sazişi imzaladı. Bu, "Sülh Naminə Tərəfdaşlıq" (SNT) Çərçivə Sənədi idi. Azərbaycan SNT proqramının prinsiplərinə əsaslanmaqla, sülhü dəstəkləmə əməliyyatlarında iştirak edir və meydana gələn təhlükəsizlik təhdidlərinə qarşı mübarizə aparır. Burada təhlükəsizlik və müdafiə islahatlarına vurğu edən geniş spektrli məsələlər üzrə siyasi dialoq və praktiki əməkdaşlıq da nəzərdə tutulub.

Qeyd edilən sazişi 1994-cü ilin fevralın 23-də Gürcüstan, həmin ilin oktyabrın 5-də isə Ermənistan imzaladı. Beləliklə, Cənubi Qafqazın hər üç ölkəsi Şimali Atlantika Alyansının tədbirlərində eyni proqram üzrə iştirak etməyə başladılar. Ancaq təcrübə göstərdi ki, onların hər birinin bu cür əməkdaşlıq barədə öz mövqeləri vardır. Doğrudur, Əfqanıstanda, Kosovoda onlar eyni dərəcədə iştirakçıdırlar. Əsas məsələ NATO ilə əməkdaşlığın strategiyası və konkret kursu ilə bağlıdır. Bu aspektdə region dövlətləri eyni yolu seçmədilər.

Gürcüstan NATO-ya üzv olmaq kursunu götürdü. Artıq neçə illərdir ki, bu istiqamət üzrə hərəkət edir. Həm Alyans daxilində, həm də Rusiyada bu təşəbbüsə münasibət birmənalı deyil. Moskva təbii ki, Tbilisini və Brüsseli xəbərdar edir. Kreml Gürcüstanın NATO-ya üzv olmasını və təşkilatın hərbi bazasının bu ölkədə yerləşdirilməsini təhlükəsizliyinə ciddi təhdid hesab edir. Bu səbəbdən də Rusiyadan Tbilisiyə davamlı olaraq xəbərdarlıqlar gəlir. Son illər isə bu məsələdə vəziyyət daha kəskin xarakter alıb. NATO-nun Gürcüstanda hərbi təlimlər keçirməsinə Moskva sərt təpki göstərib. Onu da deyək ki, 2008-ci ildə Rusiya Abxaziya və Cənubi Osetiyaya hücum edəndə, Gürcüstana NATO yardım edə bilmədi. Belə çıxır ki, Şimali Atlantika Alyansına üzv olmaq kursunu seçmək ərazi bütövlüyünə təminat vermir.

İndi də Gürcüstan hərbi risk altındadır. Bunu ekspertlər də etiraf edirlər. Lakin Tbilisi NATO-ya üzvlük xəttindən çəkilmək fikrində deyil. Deməli, Şimali Atlantika Alyansı ilə münasibətlərin məzmunu faktiki olaraq Gürcüstanı Rusiya ilə gərginlikdə saxlayır. Bunun fonunda NATO-Ermənistan əlaqələri daha dolaşıq və perspektivsiz görünür. İrəvan KTMT-yə üzv ola-ola NATO ilə əlaqələri genişləndirməkdən bəhs edir. Ekspertlər bunu Ermənistanın eyni vaxtda iki stulda oturmaq cəhdi kimi qiymətləndirir və məntiqi olaraq, bu cəhdi uğursuz adlandırırlar.

Ermənistan rəhbərliyi nə qədər NATO ilə əməkdaşlıqdan dəm vursa da, Kremlin icazəsi olmadan və KTMT nizamnaməsindən kənarda Şimali Atlantika Alyansı ilə hər hansı əməkdaşlıqdan söhbət gedə bilməz. Bunu təsdiq edən faktlardan biri məhz Moskvanın göstərişi ilə Ermənistanın Suriyaya hərbçilər göndərməsidir. Həmin hadisə ilə bağlı hətta Qərb İrəvana xəbərdarlıq belə edib.

## Perspektivli kurs: Bakının uzaqgörən və praqmatik siyasəti

Bunların fonunda Azərbaycan-NATO münasibətləri tam konstruktiv məcrada və heç bir ziddiyyət yaratmadan inkişaf edir. Belə ki, Azərbaycan 2003-cü ildən bu yana NATO-nun Əfqanıstanda həyata keçirilən əməliyyatlarına töhfə verir. Azərbaycanın 120 nəfərlik heyəti Alyansın Əfqanıstandakı "Qətiyyətli Dəstək" missiyasının tərkibində xidmət edir. Eyni zamanda, hava və quru tranziti, müxtəlif treninqlər, humanitar mina təmizləmə və Əfqan Ordusu üzrə Etimad Fonduna maliyyə töhfələri ilə də dəstək həyata keçirir.

Bu cür əməkdaşlığın perspektivi haqqında NATO rəhbərliyi dəfələrlə fikir bildirib. Son olaraq, təşkilatın baş katibi Y.Stoltenberq deyib ki, "Bakı-Tbilisi-Qars NATO-nun Əfqanıstanda "Qətiyyətli Dəstək" missiyasının uğuruna mühüm töhfə verir". O, bu fikri 2019-cu ilin aprelin 3-4-də Vaşinqtonda NATO xarici işlər nazirlərinin növbəti iclasında ifadə edib. Fikirlərini inkişaf etdirərək Y.Stoltenberq Azərbaycanın Alyansın yaxın tərəfdaşı olduğunu, beynəlxalq sülh və təhlükəsizliyin bərqərar olunmasında NATO ilə sıx əməkdaşlıq etdiyini vurğulayıb.

Etiraf etmək lazımdır ki, bu cür qiymətləndirmə Azərbaycan-NATO münasibətlərinin sağlam məzmunu ilə yanaşı, Bakının düşünülmüş siyasət yeritdiyinin də təsdiqidir. Çünki NATO tərəfindən keçmiş sovet respublikaları ilə bağlı deyilən hər bir fikrə Kreml həssaslıqla reaksiya verir. Azərbaycanla bağlı isə onun heç bir iradı yoxdur. Deməli, Azərbaycan rəhbərliyinin seçdiyi əməkdaşlıq kursu NATO ilə əlaqələri gücləndirir, onun perspektivli olmasını təmin edir və eyni zamanda, regionun böyük dövlətlərini qıcıqlandırmır. Bu özəlliyinə görə Azərbaycan-NATO münasibətləri NATO-Ermənistan və NATO-Gürcüstan münasibətlərindən keyfiyyətcə fərqlənir.

Vurğulanan məqamlar Azərbaycanın xarici siyasətinin mühüm aspektləri arasında sıx əlaqənin olduğunu göstərir. Bakı iqtisadi, ticarət, nəqliyyat dəhlizləri və logistika, enerji kimi vacib istiqamətləri hərbi-müdafiə və təhlükəsizliklə sıx əlaqələndirə bilir. Ayrıca, NATO siyasəti səmərəli çərçivədə aparılır ki, yekunda müsbət nəticəsini verir. Daha geniş aspektdə baxanda görürük ki, Azərbaycan xarici siyasətin bütün prioritet istiqamətlərini sistemli olaraq uyğunlaşdırır. NATO məsələsi isə bir sıra səbəblərdən daha həssas xarakterə malikdir.

Məsələ ondan ibarətdir ki, hazırda NATO-Rusiya münasibətləri çox həssas bir mərhələdədir. Şimali Atlantika Alyansının Şərqə doğru genişlənmək kursuna Moskva ciddi etiraz edir. Bunun fonunda Rusiya öz ərazisinə yaxın məkanlarda NATO-nun hər bir fəaliyyətinə həssaslıqla reaksiya verir. Bunu Ukraynada, Gürcüstanda, Baltikyanıda, Qara dəniz hövzəsində müşahidə etmək olar. Onda belə bir nəticə əldə edilir ki, Cənubi Qafqaz kimi mürəkkəb geosiyasi məkanda yerləşən hər bir ölkə hərbi əməkdaşlıq məsələsinə xüsusi həssaslıqla yanaşmalıdır. Məhz bu bağlılıqda Bakının NATO ilə əməkdaşlıq siyasətinin nə dərəcədə uğurlu olduğunu görürük.

Təbii ki, Azərbaycanın hərbi sferada atdığı istənilən addımın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli kontekstində də qiymətləndirilməsi vacibdir. NATO rəsmi olaraq Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Qəbul etdiyi sənədlərdə də bu barədə konkret müddəa yazılıb. Şimali Atlantika Alyansı Azərbaycanın işğal edilmiş ərazilərindən təcavüzkarların çıxarılması haqqında da fikir bildirib. Lakin bundan o tərəfə hansısa konkret addım atılmayıb. Məsələn, NATO İraqa müdaxilə ilə bağlı qətiyyətli mövqe nümayiş etdirib, ümumiyyətlə, istənilən təcavüzə qarşı olduğunu bəyan edib. Ancaq məsələ Azərbaycana gəldikdə, nədənsə, bir qədər fərqli məqamlar ortaya çıxır. O cümlədən NATO təcavüzkar Ermənistanla da "sülh naminə" tərəfdaşlıq edir. Baxmayaraq ki, İran heç kimin ərazisini işğal etməyib, NATO eyni münasibəti Tehrana göstərməz. Ermənistan başqasının ərazisini işğal edibsə, o, hansı sülhdən danışa bilər? Bu kimi suallar insanları düşündürür. NATO rəhbərliyi də düşünsə, bizcə, sülh üçün faydalı olar.

**Newtimes.az**

# Ucalıq və xeyirxahlıq zirvəsi - Zərifə xanım Əliyeva

*YAP Sabunçu rayon təşkilatında görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anadan olmasının 96-cı ildönümünə həsr edilmiş tədbir keçirilib*






***Dünən YAP Sabunçu rayon təşkilatında görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 96-cı ildönümünə həsr edilmiş tədbir keçirilib. Rayon təşkilatının sədri Mehriban Abasquliyeva görkəmli oftalmoloq, respublikamızda tibb elminin inkişafına mühüm töhfələr vermiş akademik Zərifə xanım Əliyevanın keçdiyi şərəfli həyat yolundan danışaraq bildirib ki, hər bir azərbaycanlı üçün o, kamillik və müdriklik məktəbidir: "Zərifə xanım Əliyeva böyük bir missiyanı da yerinə yetirib. Vaxtilə, Əziz Əliyevin ailəsində görüb-götürdükləri yaxşı bir təcrübə kimi ölkənin birinci şəxsinin xanımı olduğu zamanlarda köməyinə çatıb. Ulu Öndər Heydər Əliyev kimi dahi şəxsiyyətin, görkəmli dövlət başçısının, diplomatın, siyasətçinin etibarlı, dəyanətli, şəfqətli və cəsur həyat yoldaşı olmaq məhz ona nəsib olub".***

M.Abasquliyeva akademik Zərifə xanım Əliyevanın oftalmologiya elminin inkişafındakı xidmətlərindən də danışaraq bildirib ki, Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin tarixinə parlaq səhifələr kimi yazılmışdır: "Zərifə xanım Ümummilli Liderimiz Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı, Prezidentimiz İlham Əliyevin anasıdır. Bu gün dövlət başçısı İlham Əliyev xalqa xidmət amalını bir ailə ənənəsi kimi yaşadır".

Tədbirdə YAP Sabunçu rayon təşkilatının qadınlar şurasının sədri Ramidə İbrahimova görkəmli alim Zərifə xanım Əliyevanın həyat və fəaliyyətindən söz açaraq bildirib ki, akademik Zərifə xanım Əliyevanın fitri istedada malik novator alim, pak və nəcib bir insan kimi yaşadığı mənalı ömür yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir.

Tədbirdə Müharibə və əmək əlilləri üçün pansionatın direktoru Qətibə Əsədova, YAP Sabunçu rayon təşkilatının sədrinin müavini Bəxtiyar Qasımov, 22 saylı uşaq poliklinikasının həkimi Könül Məmmədova, veteran müəllim Əminə Hüseynova və başqaları çıxış edərək vurğulayıblar ki, Zərifə xanımın işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə qalacaq, onun parlaq xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaqdır.

Sonda bir qrup partiya üzvlərinə ictimai-siyasi işlərdə fəal iştirak etdiklərinə görə rayon təşkilatının fəxri diplomları təqdim olunub.

**RƏFİQƏ KAMALQIZI**

# YAP Yasamal rayon təşkilatının gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib

***Dünən Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib. Tədbir iştirakçıları rayon təşkilatının foyesindəki Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzərək, Dahi Şəxsiyyətin xatirəsini dərin ehtiramla yad ediblər.***







Dövlət himni səsləndirildikdən sonra konfransı YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov açaraq, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycanının iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə etdiyini, ölkəmizin beynəlxalq mövqeyini daha da möhkəmləndiyini diqqətə çatdırıb.

T.Əhmədov dövlət gənclər siyasətinə nəzər salaraq, ölkədə yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclərin formalaşdığını bildirib.

Konfransda YAP Yasamal rayon təşkilatının gənclər birliyinin sədri Bəxtiyar Nəbiyev ötən konfransdan keçən müddətdə təşkilatın fəaliyyəti haqqında hesabatla çıxış edib. O, hesabat dövründə görülən işlər, reallaşdırılan layihələr haqqında məlumat verib.

Rayonun fəal gənclərindən Vəfa Mürsəlzadə, Bayram Aslanov və Anar Cəfərov çıxış edərək, Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi nəticəsində gənclərimizin qazandıqları nailiyyətlərdən danışıblar.

Konfransda YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktor Vüqar Rəhimzadə çıxış edərək, müasir tariximizin böyük bir mərhələsinin müdrik dövlət xadimi Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Hazırda ölkəmizin dünya birliyində söz sahibinə çevrilməsinin əsası, məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Qeyd edib ki, bu gün Azərbaycan Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə işıqlı gələcəyə doğru inamla irəliləyir.

Sonra təşkilati məsələlərə baxılıb. Konfransda YAP Yasamal rayon təşkilatının gənclər birliyi şurasına 61, idarə heyətinə isə 25 nəfər seçilib. İlqar Quliyev YAP Yasamal rayon təşkilatının gənclər birliyinin sədri və onun müavinləri seçilib.

YAP Gənclər Birliyinin ümumrespublika konfransına isə 15 nəfər nümayəndə seçilib.

Konfransda Milli Məclisin vitse-spikeri Bahar Muradova çıxış edərək, partiyanın yaranma tarixi, onun keçdiyi şərəfli yol, Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərindən danışıb. Qeyd edib ki, Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev respublikamızın hərtərəfli və sürətli inkişafı naminə çoxşaxəli və innovativ islahatlar həyata keçirir.

B.Muradova bildirib ki, hər bir xalqın gələcəyi gənclik olduğu kimi, Azərbaycanın da gələcəyinin gənclərin əlində olması ilə yalnız qürur duymaq olar: "Siz öz öhdəliklərinizi bilən, vətəndaş məsuliyyətini dərk edən, öz xalqı, Vətəni, əqidəsi, seçdiyi siyasi yol qarşısında vicdan borcunu məsuliyyətlə yerinə yetirən gəncliyin nümayəndələrisiniz. Sizin fəaliyyətinizin ən müxtəlif istiqamətləri belə söyləməyə imkan verir ki, siz Ulu Öndər Heydər Əliyevin ideyaları ilə yaxşı silahlanmısınız. Sizin qəlbinizdə Azərbaycan sevgisi, Ulu Öndər və Onun ideyalarına məhəbbət kök salıb. Yalnız bu sevgidən çıxış edərək, layiqli vətəndaş olmaq mümkündür".

***Zümrüd BAYRAMOVA***

# İçərişəhər DTMQİ: Sosial şəbəkələrdə İçərişəhərlə bağlı yayılan fotogörüntülər həqiqətə tamamilə ziddir

Sosial şəbəkələrdə İçərişəhərlə bağlı paylaşılan fotogörüntülər həqiqətlə tamamilə ziddiyyət təşkil edən qərəzli addımların bir nümunəsidir. AZƏRTAC xəbər verir ki, bu fikir "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin (DTMQİ) açıqlamasında yer alıb. Açıqlamada deyilir: "İlk olaraq qeyd edilməlidir ki, İçərişəhərdə hazırda fotoda görünən vəziyyətdən əsər-əlamət yoxdur. Bunu açıq-aydın müşahidə etmək mümkündür. Həmin fotoşəkillər 2011-ci ildə Qala divarlarının restavrasiya işlərinin aparıldığı ərəfədə çəkilib. Məsələnin kökündə isə əslində sovet dövründə - 1954-cü ildə Qala divarları üzərində aparılan kobud rekonstruksiya işləri durur və əfsuslar olsun ki, bu proses zamanı Qala divarlarının o zamana qədər mövcud olmuş tarixi bürclərindən biri zədələnərək öz görkəmini itirmiş və düz divarın çəkilməsi ilə nəticələnmişdir.





"İçərişəhər" DTMQİ fotoşəkillə bağlı yaradılan mənzərənin və əsassız ittihamların əksinə olaraq 2011-2012-ci illərdə Qala divarlarının bərpasını həyata keçirib və bu əsnada həmin dağıdılmış bürcü bərpa etmək üçün genişmiqyaslı bərpa işləri görüb. Bu zaman bütün arxiv sənədləri nəzərdən keçirilib, bürcü mümkün qədər tarixi görkəminə qaytarmaq üçün tarixçilər, memarlar, mühəndislər tərəfindən layihə işlənib hazırlanıb. Məhz bu işlərin nəticəsində bu gün Kiçik Qala küçəsində həmin bürcün bərpa olunmuş vəziyyətini görə bilərsiniz".

# “Azərbaycan əlbəttə ki, müharibə variantını da istisna etmir”

***Son vaxtlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində danışıqlar intensivləşib. Xarici işlər nazirlərinin Moskva görüşündən sonra növbəti rəsmi görüşlərin keçirilməsi nəzərdə tutulur. Bu tip görüşlərin təşkilində və keçirilməsində Rusiyanın fəallıq göstərməsi o fikri yaradır ki, rəsmi Moskva münaqişənin həllində konstruktiv mövqe sərgiləyir. Söhbət etdiyimiz müsahiblərimiz Azərbaycanın gücü və qüdrəti qarşısında Ermənistanın tədricən geri çəkilib, zəifliyini etiraf etməyə başladığını bildirdilər.***

Politoloq Elxan Şahinoğlu:
**“ABŞ-ın dövlət katibi nazirlərin növbəti görüşünün ABŞ ərazisində keçirilməsinə çalışır”**

- Xarici işlər nazirlərinin mütəmadi keçirilən görüşlərindən real nəticə əldə olmayıb və son görüşdə elə bir optimist üçün əsas vermir. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə təsir etməyəcək müəyyən detallar ətrafında ortaq baxış var, jurnalistlərin qarşılıqlı səfərləri, atəşkəs rejiminin qorunması. Amma bizi əsas maraqlandıran odur ki, nə vaxt işğalçı Ermənistan Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağı və ətraf rayonları boşaltmağa başlayacaq? Bizim ən böyük tələbimiz budur. Ancaq bu istiqamətdə irəliləyiş yoxdur. Ona görə də, növbəti görüşdən optimist deyiləm. Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı təşkil olunan rəsmi görüşlərin böyük əksəriyyəti Rusiyanın vasitəsi ilə reallaşdırması bu anlama gəlir ki, hər zaman Rusiya bölgədə söz sahibi olduğunu nümayiş etdirməyə çalışır. Rusiya həm də ATƏT-in Minsk Qrupunun 3 həmsədr dövlətlərindən biridir.



Yəni digər iki həmsədr dövlət də var. Müəyyən vaxtlarda Fransa və ABŞ-da Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı təşəbbüslərlə çıxışlar ediblər. Hazırda ABŞ bir qədər fəallıq göstərir. ABŞ-ın dövlət katibi xarici işlər nazirlərinin növbəti görüşünün ABŞ ərazisində keçirilməsinə çalışır. Hesab edirəm ki, bunun da Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə ciddi təsiri yoxdur. Önəmli olan bu dövlətlərin işğalçıya təsir etməsidir. Fransa və ABŞ-ın Ermənistana təsir imkanları o qədər geniş deyil. Amma Rusiyanın kifayət qədər əlində təsir imkanı var ki, işğalçını mərhələli həll planını qəbul etdirməyə razı salsın. Çox təəssüflər olsun ki, Rusiya bunu etmir. Ona görə də, Rusiyada görüşlərin sayı çox olsa da, danışıqlar hələ də ölü nöqtədən tərpənməyib.

Siyasi şərhçi Azər Həsrət:
**“Azərbaycan öz mövqeyinə sadiqdir”**



- Azərbaycanla Ermənistan arasında, xüsusən də, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar vacibdir və gərəklidir. Yəni Azərbaycan öz mövqeyinə sadiqdir. Bilirsiniz ki, Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib və həmişə də o mövqeyə sadiq qalıb ki, bizim dövlətimiz münaqişəni dinc yolla, müharibəsiz həll etməkdə israrlıdır. Lakin Ermənistan bunu tam və zamanında anlamazsa, Azərbaycan əlbəttə ki, müharibə variantını da istisna etmir. Son dövrlərdə münaqişənin həlli istiqamətində XİN başçıları arasında danışıqlar intensivləşib. Belə intensiv danışıqların aparılması ondan xəbər verir ki, Ermənistan ən azından danışıqlar prosesini pozmağın mümkünsüzlüyünü başa düşür. İntensiv şəkildə danışıqlar aparıb məsələnin həllinə nail olmaq lazımdır. Xarici işlər nazirlərinin danışıqların aparılması ilə bağlı görüşləri məsələnin bir mərhələsidir. Əsas məsələlər dövlət başçılarının görüşlərində müzakirə olunur. Bu baxımdan, ATƏT-in Minsk Qrupunun həmsədri olan 3 ölkə ABŞ, Rusiya və Fransa da zirvə görüşünün keçirilməsində maraqlıdırlar. Onlar düşünür ki, hər iki dövlətin ən ali rəhbərinin iştirakı ilə görüşlərin keçirilməsi işin daha intensiv şəkildə sürət götürməsinə səbəb ola bilər.

***GÜLYANƏ***



# YAP Laçın rayon təşkilatı Zərifə xanım Əliyevanın 96-cı ildönümünü qeyd edib

***Dünən YAP Laçın rayon təşkilatı ilə rayon mərkəzi xəstəxanasının birgə təşkilatçılığı ilə görkəmli oftalmoloq-alim, əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 96-cı illiyi münasibətilə tədbir keçirilib.***

Tədbir iştirakçıları ilk öncə akademik Zərifə xanım Əliyevanın əziz xatirəsini bir dəqiqəlik sükutla yad edib. Anım mərasimində çıxış edən Yeni Azərbaycan Partiyası Laçın rayon təşkilatının sədri İlqar İlyasov bidirib ki, Zərifə xanım Əliyeva yaddaşlarda gözəl alim və ləyaqətli ziyalı olmaqla yanaşı, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu kimi əbədiləşib: “Onun zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, Azərbaycan tibb elminin tarixinə parlaq səhifələr kimi yazılıb”.

Tədbirdə rayon mərkəzi xəstəxanasının baş həkimi Güllü İbadova  və digərləri çıxış edərək Zərifə xanım Əliyevanın şərəfli ömür yolundan ətraflı söhbət açaraq onun peşəkar həkim olmaqla yanaşı, həm də ictimai xadim, millətinə, vətəninə, peşəsinə, ailəsinə bağlı bir ziyalı, xeyirxah əməllər sahibi kimi yaddaşlara  həkk olunduğunu bildiriblər.

Tədbirdə  iştirak edən rayon sakinləri göstərilən tibbi xidmətin keyfiyyətindən, həkimlərin diqqət və qayğılarından razı qaldıqlarını bildirməklə, hər il  ölkə başçısının tapşırığına əsasən əhalinin müayinə olunması ilə bağlı görülən tədbirlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə  minnətdarlıqlarını bildiriblər.

***Rəfiqə HÜSEYNOVA***

# Vaşinqtonda türk və Azərbaycan icmalarının etiraz nümayişi keçirilib



Aprelin 24-də Vaşinqtonda və ABŞ-ın bir sıra digər şəhərlərində ermənilərin qondarma “erməni soyqırımı”nın 104-cü ildönümü ilə bağlı nümayişi olub. ABŞ Prezidenti Donald Trampın 1915-ci il hadisələrinə həsr olunmuş ənənəvi nitqində “soyqırımı” sözünü işlətməsinə nail ola bilməyən erməni lobbisi Türkiyənin Vaşinqtondakı səfirinin iqamətgahının qarşısında kütləvi şou təşkil ediblər.

Vaşinqtonun erməni icması üzvlərinin və erməni lobbiçilərinin təqribən 60 təmsilçisi Türkiyənin diplomatik nümayəndəliyi qarşısına toplaşıb.

Türk və Azərbaycan icmalarının nümayəndələri küçənin digər tərəfinə toplaşaraq, ermənilərin yalançı təbliğatını ifşa edən və erməni dəstələrinin Birinci Dünya müharibəsi illərində dinc türklərə, həmçinin Azərbaycanın Dağlıq Qarabağ regionunun işğalı zamanı Azərbaycan vətəndaşlarına qarşı törətdikləri cinayətlər, 1970-80-ci illərdə türk diplomatları və türk vətəndaşlarına qarşı reallaşdırdıqları terror aktları haqqında Amerika ictimaiyyətini məlumatlandıran etiraz nümayişi keçiriblər.

Tədbirin əsas “mövzusu” “erməni soyqırımının xatirə günü” olsa da, erməni icmasının şüarlarının çoxunu məhz ərazi iddiaları ilə bağlı “Muş Ermənistandır”, “Şərqi Türkiyə Qərbi Ermənistandır”, “Biz öz torpaqlarımızı və təzminatlar tələb edirik!” kimi çağırışlar təşkil edib. Bu, erməni lobbisinin əsl məqsədinin Türkiyənin ərazisinin bir hissəsini Ermənistana güzəştə getməyə və təzminat şəklində pul ödəməyə məcbur etmək istəyi olduğunu bir daha təsdiqləyir.

Türk və Azərbaycan icmalarının nümayəndələri əllərində Xocalı qırğını haqqında faktların təqdim edildiyi, BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğalçı qoşunlarının Azərbaycan torpaqlarından çıxarılmasını tələb edən dörd qətnaməsinin yerinə yetirilməsi çağırışları olan və erməni terrorunu pisləyən plakatlar tutublar. Etiraz nümayişi zamanı vətənpərvərlik mövzusunda türk və Azərbaycan mahnıları, aksiyanın sonunda isə Türkiyə və Azərbaycanın dövlət himnləri səslənib.

# AzerTelecom və China Telecom arasında Strateji Anlaşma Memorandumu imzalandı

***Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi “AzerTelecom” şirkəti Azərbaycanın Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün həyata keçirdiyi “Azerbaijan Digital HUB” proqramı çərçivəsində Çinin informasiya və kommunikasiya texnologiyaları sahəsində qabaqcıl şirkəti olan “China Telecom”ilə Starteji Anlaşma Memorandumu imzalayıb.***




Çinin İKT sahəsində fəaliyyət göstərən qlobal şirkəti olan “China Telecom”la “AzerTelecom” şirkəti arasında Starteji Anlaşma Memorandumunun imzalanması Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilən və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirak etdiyi”Bir kəmər, bir yol” 2-ci beynəlxalq forumu çərçivəsində baş tutub. Forum çərçivəsində Azərbaycan Respublikası və Çin Xalq Respublikasını təmsil edən müxtəlif şirkətlər arasında sənədlərin imzalanması mərasimikeçirilib.

Starteji Anlaşma Memorandumunu “AzerTelecom” şirkəti tərəfdən Baş icraçı direktor, “Azerbaijan Digital HUB” proqramının müəllifi və rəhbəri Fuad Allahverdiyev, “China Telecom” tərəfdən isə bu şirkətin vitse-prezidenti Dong Zi Yu imzalayıb.

“Azərbaycanın beynəlxalq səviyyədə tanınan telekommunikasiya operatoru, Azərbaycanın Rəqəmsal Mərkəzə çevrilməsi üçün “Azerbaijan Digital HUB” proqramını icra edən “AzerTelecom” ilə Çinin iri texnologiya şirkəti olan “China Telecom” arasında Starteji Anlaşma Memorandumunun imzalanması mühüm əhəmiyyətə malikdir. Belə ki, bu sənəd iki ölkəni təmsil edən iri telekommunikasiya şirkətləri arasında “Digital HUB” proqramı çərçivəsində Asiya-Avropa telekommunikasiya dəhlizinin (Rəqəmsal İpək Yolu) yaradılması istiqamətində qarşılıqlı anlaşmanı və əməkdaşlığı özündə əks etdirir”- deyə “AzerTelecom” şirkətinin Baş icraçı direktoru Fuad Allahverdiyev qeyd edib.

Fuad Allahverdiyevin bildirdiyinə əsasən, Strateji Anlaşma Memorandumu Çinin internet trafikinin daşıyıcısı - qlobal tranzit şirkəti olan “China Telecom” şirkətinin internet trafikinin “Digital HUB” proqramı çərçivəsində qurulan Asiya-Avropa arasında yenirəqəmsal telekommunikasiya dəhlizi üzrə Azərbaycan üzərindən daşınması istiqamətində qarşılıqlı əməkdaşlıq və tərəfdaşlıq üçün imkanlar açır.

# Paytaxt Bakı "Formula-1" yarışlarına start verdi

***Ölkəmizin bütün sahələrində, o cümlədən, kənd təsərrüfatında, kosmik və hərbi sənayedə, səhiyyədə, təhsildə və s. əldə olunan uğurları, eləcə də, beynəlxalq arenada qurduğu əməkdaşlıq münasibətləri və davamlı inkişafı Azərbaycanın dünyada tanınmasına, söz və nüfuz sahibinə çevrilməsinə səbəb olan amillərdir. Azərbaycan qeyd olunan sahələrlə yanaşı, tolerant və multikultural dəyərlərə malik dövlət kimi də dünyada tanınır. Ölkəmizdə beynəlxalq tədbirlərin təşkili Azərbaycan dövlətinin sülhsevər olduğunu və multikulturalizm siyasətini bir daha dünya ictimaiyyətinə təqdim edir.***

Beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi üçün ölkəmizə olan etimad Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınmasının göstəricisidir. Eyni zamanda, bütün bu tədbirlər Azərbaycanın gücünü, potensialını və təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirir.

Bu gün ölkəmizdə möhtəşəm "Formula-1" yarışlarına start verildi. Artıq 4-cü dəfədir ki, paytaxt Bakıda keçirilən yarım əsrdən artıq tarixi olan "Formula-1" idman tarixində yeni maraqlı səhifədir. 1950-ci ildən etibarən hər il keçirilən "Formula-1"in möhtəşəmliyi üçün paytaxtımızda istənilən şərait yaradılıb. Əminliklə vurğulamaq olar ki, yarışların müvəffəqiyyətlə keçirilməsinə Bakı tam hazırdır. Bu günə qədər yarışların uğurla keçirilməsi üçün bir çox tədbirlər görülüb.



## "FORMULA-1" KİMİ BİZİM TURİZM POTENSİALINA DƏSTƏK VERƏN İKİNCİ BEYNƏLXALQ TƏDBİR OLA BİLMƏZ"

Ötən il Bakıda keçirilən "Formula-1" Avropa Qran-Prisi yarışlarını dünyanın 200 qədər ölkəsində 500 milyondan çox azarkeş televiziya vasitəsilə izlədi. "Formula-1" üzrə dünya çempionatının tamaşaçı auditoriyası bütün qitələri əhatə etdi. Amerika, Avropa, Avstraliya, Asiya və Afrika ölkələrinin televiziya kanalları yarışları müntəzəm yayımladılar. 500 milyon televiziya tamaşaçısının Avropa Qran-Prisində ən güclü pilotlarının mübarizəsini izləməklə yanaşı, şəhərimizin gözəlliyi ilə tanış olub, müasirliklə qədimliyin simvollarını özündə birləşdirən Bakı haqqında geniş məlumat əldə edə bildilər. ABŞ-ın, Böyük Britaniyanın, Kanadanın, Fransanın, İspaniyanın, Avstraliyanın, Braziliyanın, Portuqaliyanın, Almaniyanın, İtaliyanın, Cənubi Afrika Respublikasının, Rusiyanın, Yaponiyanın, Polşanın, Hindistanın məşhur televiziya kanalları Bakı Qran-Prisini yayımlamaqla yanaşı, paytaxtımıza həsr olunan 200-ə yaxın reportaj və material hazırladılar. Azərbaycanın beynəlxalq nüfuzlu yarışlara yüksək səviyyədə ev sahibliyi etməsi, qədim tarixi abidələrimiz diqqətdən kənarda qalmadı.

İnsanların televiziya vasitəsilə birbaşa izlədiyi yarışların keçirildiyi məkan şəhər halqası olduğundan, onlar təkcə avtomobilləri deyil, inkişaf etmiş Bakının gözəlliyini ətraflı görə bilirlər. "Formula-1" Azərbaycanı dünyaya tanıtmaq üçün ən yaxşı nümunə kimi dəyərləndirilir. "Formula-1" yarışı ölkəmizin təbliği, eləcə də, turistlərin cəlb edilməsi baxımından, ideal imkanlar yaratmış olur. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Formula-1" kimi bizim turizm potensialına dəstək verən ikinci beynəlxalq tədbir ola bilməz: "...ikinci belə beynəlxalq tədbir ancaq Yay Olimpiya Oyunları ola bilər. Amma Yay Olimpiya Oyunları bir dəfə keçirilir. Özü də o qədər böyük - milyardlarla vəsait tələb edir. Ancaq "Formula-1" hər il keçirilir".

## BAKI NÖVBƏTİ DƏFƏ DÜNYA TAMAŞAÇILARINA VƏ ŞƏHƏRİMİZİN QONAQLARINA MARAQLI İDMAN YARIŞI TƏQDİM EDİR

Təbii ki, növbəti dəfə paytaxtımızda keçirilən "Formula-1" yarışları yüksək standartlara cavab verəcək. Təhlükəsizlik, infrastruktur hazırlığı, kütləvi tədbirlərin keçirilməsi ilə bağlı təşkilati və texniki bazanın mövcudluğu bunun əyani göstəricisidir. Aprelin 26-28-də keçiriləcək yarışlar zamanı əyləncəli proqramlar da təqdim olunacaq. Belə ki, "Brit" mükafatlı müğənni aprelin 27-də Bakıda konsert verəcək. "Formula-1" SOCAR Azərbaycan Qran-Prisinin yarış həftəsonunun şənbə günündə - aprelin 27-də səhhətinə görə konsert proqramını ləğv etməli olan Sem Smiti həmin gün "Price Tag", "Domino" və "Bang Bang" kimi hit mahnıları ilə tanınan və albomları milyonlarla satılan Cessi Cey əvəz edəcək.

"Baku Crystal Hall"da baş tutacaq konsert "Formula-1" yarış həftəsonunun əyləncə proqramına daha bir möhtəşəm ad əlavə edəcək.

Bütün bilet sahibləri "Baku Crystal Hall"da dünya ulduzlarının iştirakı ilə keçiriləcək axşam konsertlərini pulsuz izləyə biləcəklər. Tamaşaçıların Bakı şəhər halqasından "Baku Crystal Hall"a gediş və gəlişi avtobuslar vasitəsilə həyata keçiriləcək.

Tamaşaçıların konsert zonasına rahat gediş-gəlişini təmin etmək üçün xüsusi avtobuslar fəaliyyət göstərəcək. Bir daha gözəl yarışlar izlənəcək və hamı Bakı küçələrində sürücülərin mübarizəsinə şahid olacaq.

Bu dəfə də Bakı dünya tamaşaçılarına və şəhərimizin qonaqlarına maraqlı idman yarışı təqdim etməklə yanaşı, Azərbaycanın belə mötəbər yarışlara uğurla ev sahibliyi etdiyini nümayiş etdirəcək. "Formula-1" tamaşaçıları ölkəmizdə gedən inkişaf proseslərinin şahidi olacaqlar. Ölkəmizə gələn əcnəbi qonaqlar burada yaradılan infrastrukturu, bütün sahələrdə tərəqqini, nadir arxitekturanı, ölkənin qədim tarixi və zəngin çoxəsrlik mədəniyyətini, həmçinin, sabitliyi və təhlükəsizliyi öz gözləri ilə görəcəklər. Bütün bunlar dövlət başçısı Prezident İlham Əliyevin ölkənin kompleks şəkildə inkişafına dair uzaqgörən və müdrik strategiyası ilə bağlıdır. Əminliklə demək olar ki, bu gün Azərbaycan özünü təsdiq edən zəngin və güclü dövlətdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Bakcell Formula 1 SOCAR Azərbaycan Qran Prisi 2019 yarışına hazırdır

*Azərbaycanın ən sürətli mobil şəbəkəsi Formula 1 təqviminin ən sürətli şəhər trekində ən sürətli mobil internet xidmətlərini təqdim edir*

***Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti Formula 1 SOCAR Azərbaycan Qran Prisi 2019 yarışı ilə əlaqədar olaraq xüsusi hazırlıq işləri görüb.***

Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) ilə Bakcell şirkəti arasında Azərbaycan Qran Prisinə dəstəyin göstərilməsinə dair üçillik sponsorluq müqaviləsinə əsasən Bakcell şirkəti Bakıda baş tutacaq növbəti 3 yarışa dəstək göstərəcək. Belə ki, müqavilə çərçivəsində Bulvar tribunasına Bakcell şirkətinin adı verilib və bu tribuna şirkətin korporativ vizual elementləri ilə rənglənib. Bundan başqa, bulvar ərasizində yerləşən Formula 1-in azarkeşlər zonasında Bakcell tərəfindən yarış tamaşaçıları üçün əyləncəli tədbirlər təşkil edilib. Həmçinin şirkət yarış müddətində trek ətrafında yerləşən ictimai məkanlarda öz məhsullarını Azərbaycan Qran Prisinin tamaşaçılarına təqdim edəcək.

Baku city circuit    bakcell

Bundan əlavə, Bakcell özünün sosial media səhifələrində abunəçilər üçün xüsusi müsabiqələr keçirib və qaliblərə Formula 1 yarışına və bu yarış çərçivəsində keçirilən əyləncə tədbirlərinə 150-dən çox bilet hədiyyə edib. Yarış həftəsonu ərzində mobil rabitə xidmətlərinə artan tələbatı nəzərə alaraq Formula 1 SOCAR Azərbaycan Qran Prisi 2019 yarışının ilk rəsmi dəstəkçisi olan Bakcell şirkəti Bakının mərkəzində, xüsusilə yarışların keçiriləcəyi ərazilərdə 2G, 3G və 4G şəbəkələrinin tutumunu maksimal dərəcədə optimallaşdırıb. Bakı və Abşeron ərazisində saniyədə 225 meqabitə qədər mobil internet sürətini təmin edən və ən müasir texnoloji tələblərə cavab verən LTE-A şəbəkəsi tam hazırlıq vəziyyətə gətirilib, yarış zamanı mobil xidmətlərin istifadəsində (səs və məlumat ötürülməsi) yaranacaq iri həcmli trafik tələblərini qarşılamaq üçün isə dənizkənarı bulvar ərazisində 7 ədəd müasir mobil baza stansiyası quraşdırılıb. Bundan əlavə, xüsusi təyin edilmiş personal tərəfindən yarış ərazisində 24 saat ərzində şəbəkəyə və digər texniki məsələlərə nəzarət aparılacaq. Həmçinin, Bakcell Məlumat Mərkəzi də 24 saat ərzində gücləndirilmiş iş rejimində fəaliyyət göstərərək xaricdən gələn qonaqların və ölkə vətəndaşlarının mobil rabitəyə aid suallarını cavablandıracaq.

# Bakı qəsəbələrində fəaliyyət göstərən sahibkarlara 10,7 milyon manat güzəştli kredit verilib

***Aprelin 25-də Xəzər rayonunun Mərdəkan qəsəbəsində keçirilən işgüzar forumda Bakı qəsəbələrində fəaliyyət göstərən sahibkarlara 10,7 milyon manat güzəştli kredit verilib. AZƏRTAC xəbər verir ki, bu kreditlər heyvandarlıq, quşçuluq, müasir istixana komplekslərinin yaradılması və sair sahələrə yönəldiləcək, investisiya layihələrinin reallaşdırılması 300-dək yeni iş yerinin yaradılmasına imkan yaradacaq.***



İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov deyib ki, indiyədək Bakı və onun qəsəbələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 2500-dən çox investisiya layihəsinin maliyyələşdirilməsinə 600 milyon manat güzəştli kredit verilib. Respublika üzrə bu ilin ötən dövründə investisiya dəyəri 145,7 milyon manat olan 215 investisiya layihəsinin maliyyələşdirilməsinə 33,7 milyon manat güzəştli kredit ayrılıb.

# BSU-da "Saxta erməni soyqırımı" mövzusunda konfrans keçirilib






***Bakı Slavyan Universitetində Turan Araşdırma Mərkəzi İctimai Birliyinin təşkilatçılığı ilə "Saxta erməni soyqırımı" mövzusunda konfrans keçirilib. Əvvəlcə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin BSU-nun foyesində yerləşən büstünü ziyarət edib, önünə gül dəstəsi düzüblər.***

Konfransı giriş sözü ilə açan BSU-nun elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov illərdir mənfur ermənilərin dünya ictimaiyyətinə "erməni soyqırımı" kimi tanıtdıqları saxta tarixin gənc nəslə düzgün izah edilməsinin əhəmiyyətini qeyd edib: "Tarix boyu qəsbkar ermənilərin türk torpaqlarında məskunlaşması, türk xalqlarına qarşı törətdikləri soyqırım aktları alimlərimiz tərəfindən ciddi araşdırılıb xalqa təqdim olunmalıdır".

Konfransda Turan Araşdırma Mərkəzinin sədr müavini Cavid İsmayıl "Saxta erməni soyqırımı" mövzusunda məruzə ilə çıxış edib. O, bir əsrdən artıq dövrdə ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırım hadisələrindən, erməni terrorunun tarixindən və bugünkü erməni işğalından ətraflı bəhs edib.

Konfrans çərçivəsində "Tarixini unutma-erməni terrorizminin tarixi" adlı filmin nümayişi olunub.

Konfransda millət vəkili Adil Əliyev çıxış edərək tarixi əsası olmayan qondarma erməni soyqırımı haqqında cəfəng fikirlərə qarşı Milli Məclis tərəfindən mühüm işlər görülməsindən, həmçinin dövlətin idman və gənclər, ordu quruculuğu sahəsində həyata keçirdiyi siyasətdən danışıb.

Türkiyənin Azərbaycandakı səfirliyinin təhsil müşaviri Mahmud Ağırman çıxışında XIX əsrdə Türkiyənin Ərzurum bölgəsində ermənilərin törətdikləri soyqırıma diqqət çəkib. M.Ağırman bu qətliamı erməni millətçilərinin tarix boyu terrorizmlə məşğul olmasının faktı kimi qeyd edib.

Turan Araşdırma Mərkəzinin idarə heyətinin üzvü, yazıçı Yunus Oğuz çıxışında saxta erməni soyqırımı tarixinin köklərindən danışıb. O, qeyd edib ki, "erməni soyqırımı" Ermənistanın xəstə təfəkküründən törəyən əsassız iddiadır.

Yunis Əmrə İnstitutunun Bakı filialının müdiri Cihan Özdəmir türk xalqlarının tarixindən danışaraq, türklərin tarix boyu düşmənə qarşı mübarizə əzmindən söz açıb. Azərbaycan Qaçqınlar Cəmiyyəti və Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli çıxışında XV-XVIII əsrlərdə ermənilərin Türkiyə ərazisindən Cənubi Qafqaza köçürülməsi faktına toxunaraq, ermənilərə qarşı heç bir soyqırımı hadisəsinin baş vermədiyini bildirib.

Azərbayan Türkiyə İş Adamları Birliyinin sədri Camal Yangın türk xalqlarının düşmənə qarşı mübarizədə iş, fikir və dil birliyinin önəmini qeyd edib.

Turan Araşdırma Mərkəzinin idarə heyətinin üzvü, sosioloq Əhməd Qəşəmoğlu, tarixçi alim Telman Nüsrətoğlu, əməkdar jurnalist Şəlalə Həsənova çıxışlarında qondarma erməni soyqırımının heç bir məntiqi əsası olmaması haqqında maraqlı fikirlər səsləndiriblər.

***ZÜMRÜD***

# Ermənilərin gey komandanları - Monte Melkomyan, Qaregin Njde və Andranik Ozanyan

***Bu yaxınlarda saytımızda Ermənistan ordusunda xidmət keçməmək üçün erməni gənclərinin kütləvi şəkildə homoseksuallığa doğru yönəlmələri barədə məlumat verilmişdi. Məlum olmuşdu ki, cəbhədə ölməmək üçün, onlar gey olmağı üstün tuturlar və bu proses kəskin şəkildə artmaqda davam edir.***

Bu arada, aparılan araşdırmalar nəticəsində o da məlum olub ki, demə ermənilər tarixlər boyu homoseksuallığa meyilli olmaqla yanaşı, onların "tarixi şəxsiyyət", "fədai" adlandırdıqları şəxsləri belə eynicinsli eşq macəraları yaşayıblar. Ermənilərin dünyaca məşhur adamları ya pornoulduz, ya lesbiyan, ya da homoseksuallardırlar. Misal üçün, Kim Kardaşyanın pornoulduz, Fransa mənşəli tanınmış erməni müğənni Şarl Aznavurun gey olması haqqında yəqin ki, xatırlatmağa dəyməz.

## Daşnakların ilk bayrağı da bu gün müasir geylərin rəsmi bayrağı olub

Yeri gəlmişkən, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyevin ermənilərin "milli qəhrəmanları" Qaregin Njde və Andraniklə bağlı sensasion məlumatları da maraq doğurub. Onun mətbuata verdiyi məlumatlarına görə, Qaregin Njde və Andranikin gey olduğu yazılır. "Mənbələrdə yazılır ki, hər iki komandir əsir götürdükləri türk kişilərini onlarla zorla cinsi əlaqəyə girməyə məcbur edir, sonra isə onları xüsusi qəddarlıqla öldürürdülər", deyə qeyd edən Z.Əliyevin digər faktı da kifayət qədər maraq doğurur. Belə ki, daşnakların ilk bayrağı da bu gün müasir geylərin rəsmi bayrağı olub. "Dünyada cinsi azlıqlara ən çox dəstək verən də erməni fondları olub", araşdırmada bildirilir.

## Andranik Ozanyanın İstanbuldakı "Lodos" meyxanasında iki yunan gənclə sevişməsi, buna görə də "mademuazel Andranik" adlandırılması haqda təsdiqlənmiş məlumatlar mövcuddur

SİTAT: "Ümumiyyətlə, Andranik Ozanyanın İstanbuldakı "Lodos" meyxanasında iki yunan gənclə sevişməsi, buna görə də "mademuazel Andranik" adlandırılması haqda təsdiqlənmiş məlumatlar mövcuddur. 1895-ci ildə Qarsdan Sasona yollanaraq qiyamçı erməni dəstəsinə qoşulan və elə ilk gecədə komandir Serobun çadırında onunla yatan Andranikin eşq macərası üzə çıxmasın deyə 4 nəfər güllələnmişdi. Onlar Serobla Andranikin gecə eyş-işrətini görmüş mühafizəçilər idi.



## "Njde həmin axşam türk gənclərdən onu "sevmələrini" tələb edib, özü qadın paltarı geyib və səhərədək "təcavüzə" məruz qalıb"

Aparılan araşdırmadan sonra o da məlum olub ki, ermənilərin digər "qəhrəman"ı Qaregin Njdenin homoseksual olmasını isə, SSRİ-nin qurucularından olan Lev Trotski təsdiq edib. SİTAT: "Deyirlər, döyüşdən sonra Njde iki türk gəncini öldürməməyi əmr edib, onları müvəqqəti qərargah etdiyi kəndli daxmasına aparıb. Mənə çatan məlumatlara görə, yoldaş Njde həmin axşam türk gənclərdən onu "sevmələrini" tələb edib, özü qadın paltarı geyib və səhərədək "təcavüzə" məruz qalıb".

## Melkonyan gündüzlər "döyüşür", gecələr isə kişi sevgilisi ilə sevişirmiş!

Z.Əliyevin sözlərinə görə, hətta ermənilərin "fədai" adlandırdıqları Monte Melkonyan da passiv gey olub, özü də kişilərə meyil etməsini sübut edən fotofaktlar var: "Qarabağda döyüşmüş erməni terrorçuları Melkonyanın kişi sevgilisinin uzun illər onun yanında qaldığını deyiblər. Onlar gündüzlər "döyüşçü" olan Melkonyanın gecələr "qadın"a çevrildiyini qeyd ediblər. Sözügedən məlumatları artıq ermənilər özləri də təsdiq etməyə başlayıblar".

Bu arada, Monte Melkonyanın ermənilərin də böyük təəccübünə səbəb olan fotoları da üzə çıxıb.

***Rövşən RƏSULOV***

# "Nar" "ADA Innovation Awards 2019" mükafatına dəstək verir

***Ölkədə təhsil və maariflənmənin inkişafına xüsusi önəm verən "Nar" ADA Universitetində təşkil edilən "ADA Innovation Awards 2019" mükafatının keçirilməsinə növbəti dəfə dəstək olub.***

İdeyanın əsas məqsədi tələbələrə innovativ ideyalarını irəli sürməklə öz startapını başlamaq və real biznes qurmasına şərait yaratmaqdır. Müsabiqənin yekun mükafatlandırma mərasimi mayın 24-də baş tutacaq. Qalib layihələrin müəllifləri müxtəlif pul mükafatları ilə təltif edilməklə yanaşı, 2018-2019-cu tədris ilində "ADA İnnovasiya Mərkəzinin sakinləri" titulunu alacaqlar.

Qeyd edək ki, dörd il əvvəl ADA Universitetinin rektoru Hafiz Paşayevin şəxsi təşəbbüsü ilə təsis edilən ADA İnnovasiya Mərkəzi tələbələr arasında innovativ düşüncə tərzi və sahibkarlıq ruhunu artırmaq məqsədi ilə yaradılıb.

"Nar" və ADA Universiteti arasında əməkdaşlıq çərçivəsində nəzərdə tutulmuş layihələr arasında ADA Universiteti Fondu ilə əməkdaşlıq, ADA-nın tələbə və məzunları üçün karyera və staj imkanlarının təklif edilməsi, Universitetin ixtisasartırma proqramlarına "Nar" operatoru əməkdaşlarının cəlb edilməsi kimi tədbirlər də mövcuddur. "Nar"-ın KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Facebook xəstəsi - Əli Kərimli



***Yəqin fərq etdiniz. Əli Kərimlidən danışırıq. Özünün siyasi fəaliyyətini büsbütün Facebook üzərində quran bu satqın və əxlaqsız AXCP sədri Ə.Kərimli gecəli-gündüzlü çalışır. Çalışır ki, qaşınmayan yerdən qan çıxarsın. Hər zaman bu "aydan arı, sudan durudur".***

Özü də bəzi insanların bütün dərd-sərini öz dərdi kimi qəbul edir, ona görə də sosial şəbəkələrdə yapışıb qalıb. Ancaq bilmir ki, bütün fəaliyyətini xalqın zəhləsini tökməyə yönəldib. Xüsusilə, facebookda, kompüter qarşısında oturan Ə.Kərimlinin yersiz çıxışları və sosial şəbəkədəki adamlarının onun fikirlərini "like" (bəyənmə) etməsi bir çoxlarına onun qeyri-ciddi fərd olması qənaətini yaradır. Fakta əsaslanaq. Baxın, əgər yadınızdadırsa, manatın dollara nisbətdə ucuzlaşmasında öz xeyri üçün istifadə etməyə cəhd göstərən Ə.Kərimli burada süni ajiotaj yaratmaq məqsədini əsas olaraq hədəf götürdü. Lakin Azərbaycan xalqı, ictimai rəy də yaxşı bilir ki, Ə.Kərimlinin əsl niyyəti nədir. Bu fərd ona görə hay-haray qaldırdı ki, görsün xalqı indiki vəziyyətdə ona dəstək verəcək, ya yox. Ancaq oxu daşa dəydi. Çünki xalq Ə.Kərimli kimi satqın və əxlaqsızı çoxdan zibilliyə atıb, üstündən də bir təpik vurub ki, bəsdir!!! Batsın səsin!!!

Ancaq qozbeli qəbir düzəltsə də, görünür bu xəyanətkar satqın və əxlaqsızı heç qəbir də düzəltməyəcək. Çünki bel əyri doğulub, əyri də qalacaq.

Yeri gəlmişkən, indi də ölkəmizdə keçirilən "Formula-1"-dən qaşınmaya düşən bu fərd, yenə də facebook sosial şəbəkəsində çağırışlar etməyə başlayıb. Bax, buna görə deyirəm səsin batsın!!!.

Hər şey bir yana, bu adam illərdir Azərbaycanın Avropaya inteqrasiyasının vacib olduğunu təbliğ edir, hakimiyyəti bu məsələdə gecikməkdə ittiham edir, günü bu günsə öz mövqeyinə tam əks mövqe sərgiləyir. Sual olunur: kimin əlinə oynayırsan, Ə.Kərimli?

## Cidanı çuvalda gizlətmək olmaz...

Bir də, haqq nazilər, amma üzülməz. Bu fikri deməyə haqqım var. Çünki 26 ildir erməni yalı ilə yemlənən Ə.Kərimli kimi satqınlar hər gün bir cinayətkarı, Vətən xainin adını "siyasi məhbus" qoyur. Və başlayır bu cinayətkarın müdafiəsinə. Müdafiə etməkdə də məqsəd xarici qüvvələrə nökərçilik etməklə qrantlar qoparmaqdır. Yenə də qəribəsi də odur ki, qranta görə qaşınmayan yerdən qan çıxarmağa çalışan AXCP sədri Azərbaycanın uğurunu götürə bilmir. Bax, yenə də deyirəm: alçaq, batsın sənin səsin!!! Bu satqınlar və ölkəmizin uğurlarını qısqanclıqla yanaşan avropalı deputatlar da qanmağa məhkumdurlar ki, Azərbaycan Avropa qədər zəif deyil ki, vətəndaşlarımız siyasi mövqeyinə görə şərlənib həbs edilsin. Belədir, ya yox, cənab misterlər?

Ancaq Ə.Kərimli kimi sosial şəbəkə xəstələri onu da unudurlar ki, anti-Azərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib özgə yalı ilə yallanmaqla heç nəyə nail ola bilməyəcəklər və gec-tez bu yalan və böhtanlar sonda ifşa olunur. Çünki belələri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlanmır.

***Rəfiqə HÜSEYNOVA***

# "Milli Şura"nın saxta "mövqe sənədi" - siyasi artistizmin pik həddi

*Gültəkin Hacıbəylinin həmin "sənədi" bəh-bəhlə sosial şəbəkədə ictimailəşdirməsi, sözün əsl mənasında, istifadəçilər tərəfindən istehza ilə qarşılanıb*

***"Milli Şura" adlandırılan və xalq içində xəyanət simvolu, yaxud satqınlar yığnağı kimi tanınan bu qurumun indi də saxta və gülünc təsir bağışlayan "Demokratik Qüvvələrin "Milli Şura"sının Azərbaycan və Avropa Birliyi arasında Strateji Tərəfdaşlıq Sazişinə dair Mövqe Sənədi" adı altında siyasi artistizm üsuluna əl atması artıq oradakıların nə qədər ucuz təfəkkürə, eləcə də ambisiyalara sahib olduqlarını kifayət qədər təsdiq edir.***



Söz yox ki, "Milli Şura"nın bənzər addımları əvvəllər də müşahidə olunub. Hətta bu qurumdan əvvəl fəaliyyət göstərmiş və siyasi-ictimai rəydə "ictimai palatka" kimi ələ salınan "İctimai Palata" adlı məhv olmuş təşkilat da bir aralar "Müxalifətin Strateji Yol Xəritəsi" adlı haradansa köçürülmüş, plagiat bir sənədi zorla sırımağa çalışırdılar. Ancaq onda da heç bir dəstək görə bilmədilər. Nə xalqdan, nə də 30 ilə yaxındır satıldıqları, nökərçilik etdikləri xarici ermənipərəst dairələrdən. Bu, həm onu sübuta yetirdi ki, ələ salınan, ciddi qəbul edilməyən müxalifət, həm də işlənmiş salfet kimi hər tərəfdən lazımsız qismində bir kənara atılır.

## Radikalların iddiaları böyük suallar doğurur

İndi də "Milli Şura"nın bənzər hoqqabazlığı bəri başdan nəticəsiz və siyasi cəhətdən heç bir məntiqə sığmayan formada ortaya çıxıb. Xüsusilə, Gültəkin Hacıbəylinin həmin "sənədi" bəh-bəhlə sosial şəbəkədə ictimailəşdirməsi, sözün əsl mənasında, istifadəçilər tərəfindən istehza ilə qarşılanıb.

Yeri gəlmişkən, bu saxta "sənəddə" Azərbaycan hakimiyyətinin əldə etdiyi uğurlar, aparılan davamlı, inqilabi islahatlar qəsdən kölgəyə atılıb, hər zaman olduğu kimi, mövcud söz və ifadə azadlığının dövlət tərəfindən qorunması, inkişaf etdirilməsi siyasətinə çamur atılıb. Təkcə bir faktı deyək. Əgər bu gün satqın və xəyanətkar müxaliflər açıq-aşkar dövlət əleyhinə fəaliyyət göstərirlərsə, bu fəaliyyətlərini özlərinə məxsus media qurumlarında, sosial şəbəkələrdə rahat şəkildə, maneəsiz ictimailəşdirirlərsə, bu zaman hansı söz və ifadə azadlığının pozulması iddiası böyük sual altında qalır...

## Qarabağa aid isə bir neçə cümlə!

Həmçinin, "siyasi məhbus" kimi saxtakar iddialarına da gen-bol şəkildə yer verən "sənəddə", nədənsə dövlətin humanizm prinsipinə söykənərək, yüzlərlə insanların, xüsusilə, dağıdıcı müxalifətin qanunları pozaraq həbsə düşmüş şəxslərin azadlığa buraxılmaları barədə heç nə deyilmir. Niyə, hansı səbəbdən və nəyə görə? Təbii ki, onlar bu sualın cavabını heç vaxt verməyəcəklər, çünki onlara həqiqəti danışmaq sərf eləmir.

Digər tərəfdən, başqa şər-böhtan xarakterli iddialarını da saxta "sənədə" yerləşdirən "Milli Şura", nədənsə Qarabağın işğal faktına yalnız bir neçə cümlə ayırıb, o da dərhal saxta şəkildə yaradılmış görüntü təsiri bağışlayır və başqa bir şey deyil. Halbuki, "siyasi məhbus" və digər məsələlər palaz-palaz yer tutur!

Beləliklə, indi də bu üsullar yox olan "varlıqlarını" nümayiş etdirməyə cəhd göstərən xain qüvvələr "bəlkə qayıtdıq" kimi utopik xəyallara dalıblar. Bu utopiya isə onsuz da ölü qurumun hansı durumda olduğunu bir daha gözlər önünə sərib...

***Rövşən NURƏDDİNOĞLU***

# Anadangəlmə ürək qüsuru olan 25 yaşlı gənc uğurla əməliyyat olunub

Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında anadangəlmə ürək qüsuru olan 25 yaşlı gənc uğurla əməliyyat olunub. AZƏRTAC xəbər verir ki, klinikanın ürək-damar cərrahiyyəsi şöbəsinin müdiri Mirəli Məcidovun verdiyi məlumata görə, xəstə təngnəfəslik şikayəti ilə müraciət edib: "İlkin müayinədə exokardioqrafiya zamanı qulaqcıqlararası çəpər defekti və anormal pulmonal dönüş anomaliyası ilə bağlı şübhə yarandı. Daha dəqiq diaqnoz üçün kompüter tomoqrafiyası aparılandan sonra diaqnoz təsdiqləndi". Klinikanın həkimləri xəstə üzərində əməliyyat aparılması qərarına gəldilər. Əməliyyat zamanı məlum olub ki, pulmonal venalardan gələn qan yuxarı boş venaya tökülür. Mürəkkəb əməliyyat nəticəsində pulmonal venalardan axan qan ürəyin sol tərəfinə yönəldilib, sonra venakava superyor plastika edilib.

# "Müxalifətin parçalanması adi bir haldır"

***Müxalifətdaxili qarşıdurmalar dərinləşdikcə, partiyalardan qopmalar da genişlənir. Vəziyyətdən çıxmaq üçün ələ baxım funksiyasını yerinə yetirən müxalif baş bilənləri müxtəlif anormal ideya və təkliflərlə çıxış edirlər. Amma fakt ondan ibarətdir ki, ideya və təkliflər nəticəsiz qalır. Çünki müxalifət düşərgəsində təmsil olunan partiya sədrlərinin hər biri özünü aparıcı lider hesab edir və yuxarı başda oturmaqla və öz sərsəm iddialarını irəli sürməyə çalışır. Bu isə, digər iddialı partiya sədrləri tərəfindən rahatlıqla həzm edilmədiyindən, qarşıdurmalar yaradır. Söhbət etdiyimiz müsahiblərimiz müxalif blok və qurumların dağılmasının başlıca səbəbinin də liderlərin bir-birinə güzəştə getməməsi ilə əlaqələndirdilər.***

## "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov: "Köhnə fikirli və düşüncəli adamlar hələ də müxalifət düşərgəsini zəbt edərək, partiya sədrliyində oturublar"

- Müxalifət partiyalarının parçalanmasının başlıca səbəbi partiyalara rəhbərlik edən şəxslərin şəxsi mənafelərinin və şəxsi ambisiyalarının olması ilə bağlıdır. Çünki müxalifət təmsilçiləri öz daxillərində bir-birlərini qəbul etmirlər, özlərini bir-birlərindən üstün tuturlar, belə olan halda da onlar tərəfindən yaradılan partiyaların sonu da parçalanmalarla nəticələnir. Köhnə fikirli və düşüncəli adamlar hələ də müxalifət düşərgəsini zəbt edərək, partiya sədrliyində oturublar. Şəxsi mənafelərini və şəxsi istəklərini bütün digər istəklərdən üstün tutan adamların yaratdığı qurum istər-istəməz müvəqqəti olmalıdır və parçalanmağa məhkumdur. Yəni müxalifətin parçalanması adi bir haldır. Müxalifət düşərgəsində birlik də yoxdur. Birlik olmayan yerdə parçalanmaların baş verməsi gözləniləndir. Ümumiyyətlə, bu gün müxalifətin istəyi ancaq özlərini reklam etmək və bir müddət gündəmdə qalmaqdır. Bu gün müxalifətin özü də çox yaxşı bilir ki, onların xalq tərəfindən heç bir dəstəyi yoxdur. Bu baxımdan, müxalifət partiyaları dağılmağa və sıradan çıxmağa məhkumdur.



## "Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas: "Cəmiyyət müxalif şəxslərə inanmır"

- Bu, bir faktdır ki, Azərbaycanda müxalifət liderlərinin dialoqu alınmır. Azərbaycan cəmiyyətində müxalifət hələ ki, bir mərkəzdə birləşə bilmir. Yeni qurumlardan olan "Milli Şura", "Azərbaycan Xalq Hərəkatı"dır ki, onların da hər birinin yaranmasında ümummilli maraqlar yox, şəxsi maraqlar dayanır. Ona görə də, bu təşkilatlar arasında birliyin yaranması mümkün deyil. Uzun müddət müxalifət düşərgəsində olan bir insan kimi deyə bilərəm ki, partiyaların böyük əksəriyyəti şəxslər ətrafında yaranıb. Blok və qurumlarda ayrı-ayrı şəxslərin ətrafında yaradılıb və sonra liderlərin şəxsi ambisiyaları nəticəsində qarşıdurma yaranıb və parçalanmalar baş verib. Bir sözlə, müxalifət təmsilçiləri yeni təşkilatlar yaratsalar da, elə 1990-cı ildə olan adamlardırlar. Cəmiyyət müxalif şəxslərə inanmır və onların tutduğu mövqeləri qəbul etmir. Deməli olar ki, müxalifət düşərgəsində hər hansı bir partiya yaradılanda həmin partiyada özündən və qohum-əqrabasından, dostundan başqa ayrı adam olmur. Ona görə də, nə qədər ki, müxalifət partiyaları liderlərin şəxsi maraqları ətrafında yaradılacaqsa, o zaman partiyaların aqibəti də aruolunmaz vəziyyətlə nəticələnəcək.



***GÜLYANƏ***

# “Siyasət dəllalı” Əli Kərimlinin “50-ci kalon” iddiaları

***1980-ci illərin sonlarında başlanılan Azərbaycan Xalq Hərəkatının məqsədi ermənilərin Dağlıq Qarabağa qarşı qaldırdıqları ilhaq hədəflərinin qarşısının alınması, Ermənistan adlı ölkədəki tarixi yurdundan dirdərgin salınmış 250 minlik soydaşımızın hüquqlarının qorunması, tam müstəqil bir dövlətimizin qurulmasını təmin etmək idi. Təbii olaraq bu prosesin önündə xalqımızın bütün təbəqələrini təmsil edən insanlar iştirak edirdilər. “Azərbaycan Xalq Cəbhəsi” məhz buna görə yaranmışdı. AXC-nin ilk günlərindən etibarən ziyalıları və cəmiyyətin intellektual təbəqəsini təşkil edənlər bu təşkilatda “diskriminasiya” ilə üz-üzə qaldılar. Çünki, AXC-nin bürokratiyasına dürtülmüş “Yurd” adlı bir qrup var idi. Onlar özlərini zahirən “savadlı”, “hüquqdan başı çıxan” və AXC-nin orqanı “Azadlıq” qəzetinin funksionerlərindən ibarət idilər. “Yurd” qrupu və “Azadlıq” qəzetinin ötən illər ərzindəki fəaliyyətlərini incələsək, hər iki qrupun eyni mənbədən idarə olunduğunu görərik. Beləliklə Azərbaycanda “antimilli” siyasətin mənşəyinin şahidi olarıq.***



## “Antimilli siyasət”in eyforiyası

1993-cü ildən etibarən Azərbaycanda gözlənilmədən xarici ölkələrin bir sıra institutları peyda oldular. “Azərbaycanda demokratiya” adı altında bəzi hədəfləri ortaya atmaq üçün böyük bir şəbəkə yaratmağa çalışılırdı. Ona görə də AXC-yə üz tutdular. Burada isə, onların “həsrəti” ilə alışıb-yanan “Yurd” qrupu müntəzir vəziyyətdə dayanmışdı. Ona görə ki, bu qrup Azərbaycanda istənilən milli siyasətə qarşı sarsıdıcı zərbələr vurmaq üçün səfərbər idi.

Milli siyasət dedikdə, hər hansı dövlət o zaman güclü olur ki, onun milli hədəfləri olur. Milli təməllər üzərində köklənməyən dövləti istənilən zaman “banan ölkə”yə döndərmək də asan olur. AXC-nin sədri Əbülfəz Elçibəy dönəmin şərtlərinə görə Ordubad rayonunun Kələki kəndində olduğu üçün, rəhbərlik tamamilə “Yurd” qrupunun nəzarətinə keçmişdi. Bu qrupun başçısı Əli Kərimli və onun yandaşları Azərbaycan Xalq Hərəkatında xidmətləri olan bütün kadrları, hətta dövlət müstəqilliyimiz üçün canından keçməyə hazır olan millət vəkillərini və nüfuzlu ziyalıları AXC-dən uzaqlaşdırmaq üçün gərgin mübarizə apardı. Çünki, NED (National Democratic Institute), “Ceymstaun İnstitutu”,”Soros Fondu”, “Henrix Böll İnstitutu”, “Human Race Watch” və digər onlarca sayda strukturlar sanki Azərbaycanda “web”, yəni hörümçək toru yaratmışdılar.

Qərb dövlətlərinin humanitar məqsədli yardımları adı altında “think tank” (fikir fabriki) yürüdülürdü. Bu, “beyinyuma” konsepti ilə uzalaşan doktrinanın tərkib hissəsi idi. Bütün bunlar AXC və rəhbərliyi işğal etmiş “Yurd” qrupu tərəfindən həyata keçirildi. Təki, onlar saxtakarcasına “xarizmatik” anlayışları ilə öndə olsunlar. Bir sözlə “amöb”ə bənzər bu qrup çox asanlıqla Qərb tərəfindən coşqularla qarşılanırdı. Çünki, Qərbin ənənəvi “neokolonial” siyasətinin astar üzünə çevrilmiş “Yurd” qrupu irəli sürülən bütün şərtləri can-başla həyata keçiridilər. Hətta AXC-nin lideri Əbülfəz Elçibəyi təşkilatın tribunası olan “Azadlıq” qəzetində aşağılamaq və təhqir etmək adi bir işə çevrilmişdi. “Yurd” qrupunun lideri olan Əli Kərimli elə başa düşürdü ki, Qərbin dəstəyi ilə milyonlarla başa gələn qrant layihələrinin sayəsində Azərbaycanın “gənc” və “perspektivli” liderinə çevriləcək. Bu qrup anlamırdı ki, Qərbdə belələrinə “siyasi prezarvativ” kimi baxılır. Çünki, “Yurd” qrupu və Əli Kərimlini sadəcə maraqlandıran qrant layihələri sayəsində “parazitcəsi”nə yaşamaq idi.

## Ermənipərəst “World Vision International” fondu və Əli Kərimli



Bu təşkilatın Cənubi Qafqaz üzrə baş ofisi Gürcüstanın paytaxtı Tiflisdə yerləşir. Ofisin rəhbərliyində Liana Poqosyan (strateji planlaşdırma şöbəsinin rəisi), Narina Ohanyan (ictimaiyyətlə əlaqələr departamentinin rəisi), Narina Matevosyan (maliyyə direktoru), Aida Arakelyan (kadrlar şöbəsinin rəisi) və digər erməni kadrları təmsil olunurlar. Apardığımız araşdırmalar zamanı bəlli olmuşdur ki, AXCP sədri Əli Kərimlinin zəmanəti ilə bu təşkilatın çevrəsində yaradılmış QHT sektoru və kiçik qruplardan ibarət “sosial şəbəkə”ləri idarə edənlər 2012-2014-cü illərdə yüzminlərlə dollar dəyərində qrant layihələrinə görə pul almışlar. “World Vision International” fondunun 2015-ci il üçün hazırladığı hesabatında belə qeyd olunur: “Azərbaycan müxalifətinə il ərzində 1 milyon 800 min manat vəsait ayrılmışdır”. Bu ermənipərəst qurumun 2011-2012-ci illər üçün hesabatında Əli Kərimli və onun yandaşlarına 6 qrant layihəsinə görə 2 milyon 400 min dollar vəsaitin verildiyi qeyd olnur.

AXCP-nin funksionerlərindən biri olan və adını bizə açıqlamasını istəməyən şəxsin etiraflarında o da bildirilir ki, Əli Kərimli bizi müntəzəm olaraq Tiflisə göndərirdi. Onun verdiyi ünvanda “qrant layihələri”nə imza atırdıq və pulları Bakıda Əli Kərimlinin özünə təsilm edirdik. O, da bu vəsaitin azından 70 faizini özünə götürürdü. Biz gecə-gündüz işləyir və bunun qarşılığında 150-200 dollar məvacib alırdıq. Sonradan öyrəndik ki, onun Londonda təhsil alan oğlu Orxan Kərimli “komfortlu” həyat yaşayır və bizə çatan pulları orada istədiyi kimi xərcləyir. Eyş-işrət xəstəsi olan Orxan Kərimlinin ehtiyaclarının həddi-hüdudu yox idi.

## Ermənipərəst “World Vision International” tərəfindən Əli Kərimli və onun yandaşlarına verilən qrant layihələrinin əsl səbəbi

1. Azərbaycanda gənclərin ölkə ordusuna qarşı inamsızlıq yaratmaq,
2. Xarici dövlətlərin proyekti olan “Milli Şura”nın yaradılması,
3. “Azad Söz” sosial şəbəkəsini yaratmaqla gəncləri hakimiyyətə qarşı yönləndirmək,
4. Azərbaycanda keçirilən beynəlxalq miqyaslı tədbirləri gözdən salmaq və digər mövzulardan ibarət idi.



Bütün bunlar əslində kölgədə qalan Ermənistanın strateji maraqlarına xidmət edirdi.

## Azərbaycana qarşı təzyiqlərdə AXCP-nin rolu

Qərbə məxsus fondların vasitəsilə Azərbaycan dövlətinin regional gücə çevrilməsinin qarşısını almaq üçün, Əli Kərimli və onun yandaşlarının daim göstərdiyi “sədaqət” heç bir zaman unudulmayıbdır. Onları dəyərləndirmək üçün:

1. Müstəqil hüquqi ekspertlər,
2. Müstəqil sosial araşdırma mərkəzləri,
3. İctimai araşdırmalar qrupları,
4. Demokratik reformalara dəstək fondları,
5. İnsan haqlarının müdafiəsi,
6. İnsan haqlarının pozulmasını araşdıran fond və digər strukturlar adı altında tələb olunan qrant layihələri həyata keçirilibdir.

AXCP və onun sədri Əli Kərimli isə hər dəfə olduğu kimi, dolayı yolla bu layihələrin ararıcı siması sayılıb. Faktiki olaraq, bu gün Əli Kərimli “Milli Şura” adı altındabir yandan anti Qərb mövqeləri ilə seçilən Cənub qonşumuzdan, digiər yandan isə Qərbdən paralel şəkildə qrantlar alır. Əsas məqsəd Azərbaycanın beynəlxalq nüfuzunu mümkün qədər sarsıtmaqdır. Onun bu il aprel ayının 23-də facebook.com sosial şəbəkəsindəki profilində Azərbaycanda keçiriləcək “Formula-1” Beynəlxalq Yarışmaya qarşı paylaşdığı fikirlər bunu bir daha sübut edir. Əli Kərimli öz ənənəsinə sadiq qalaraq bu mötəbər yarışa kölgə salmaq üçün paylaşımında böhtan atmağı da unutmur. Guya bu beynəlxalq yarışın Azərbaycana heç bir xeyri yoxdur. “Zülm” və “işgəncələr”ə səbəb olur.

Azərbaycanın 29 illik müstəqillik illərindəki siyasi aləmdə bu qədər provakator xarakterə malik olan birisinə rast gəlinməyib. Halbuki, dəfələrlə hakimiyyət bu beynəlxalq yarışın mahiyyətini və xarakterini cəmiyyətə izah edibr. Bu, Azərbaycanın beynəlxalq aləmdə daha geniş mənada tanıdılması, ölkəmizdə turizmin inkişafı, qeyri neft sektorunun sayəsində milli gəlirlərimizin artması, turizm və turizm sənayesinin inkişafı, xalqımızın mədəniyyəti ilə bütün dünyanın tanış olması və digər amillərlə bağlıdır. Bu beynəlxalq yarış həm də doğma Bakıdan bütün dünyaya translasiya olunan bir idman bayramıdır. Əli Kərimli bütün bunları başa düşə bilmirsə, vay onun halına. Uzun illərdir ermənpərəst fondlardan aldığı qrant layihələrinin sayəsində məst olduğu antimilli genetikasının mənasıdır bu. Elə Ermənistan da, ona dəstək verənlər də istəmirlər ki, Azərbaycanın beynəlxalq nüfuzu daha da inkişaf etsin.

*Ə.Yusifoğlu*

## Putin: “Kim Çen In açıq insandır”

“KXDR lideri Kim Çen In açıq insandır, sərbəst müzakirələr aparır, maraqlı və zəngin həmsöhbətdir.” Rusiya mətbuatının yazdığına görə, Rusiya Prezidenti Vladimir Putin bu fikirləri Şimali Koreya lideri ilə danışıqların nəticələrini şərh edərkən deyib. “Kim Çen In yetərincə açıq insandır, gündəlikdə duran bütün məsələlər - həm ikitərəfli münasibətlər, həm sanksiya ilə bağlı vəziyyət, həm Birləşmiş Millətlər Təşkilatı, həm ABŞ-la münasibətlər və əsasən də Koreya yarımadasının nüvəsizləşdirilməsi ilə bağlı məsələlər üzrə müstəqil müzakirələr aparır”, - deyə Vladimir Putin jurnalistlərə bildirib.



## NATO PA-nın yaz sessiyası 2020-ci ildə Kiyevdə keçiriləcək

NATO Parlament Assambleyasının 2020-ci ildə yaz sessiyası Ukraynada keçiriləcək. Bununla bağlı Ukrayna Ali Radasının dünən keçirilən iclasında qərar qəbul edilib. NATO PA-nın sessiyası mayın 22-25-də Kiyev şəhərində keçiriləcək. Bununla bağlı Ali Rada tərəfindən təşkilat komitəsi yaradılıb. Komitə iki həftə ərzində sessiyanın keçirilməsinə dair təşkilati işlərin proqramını hazırlayaraq Ali Radaya təqdim etməlidir.

# Qadın tematikasını gender problemləri səviyyəsinə qaldıran sahələr

***Gender tədqiqatlarının əsası yalnız kişilər və qadınların statusları, rolları və həyatlarında digər aspektləri arasındakı fərqin təsviri deyil, həm də gender rolları və münasibətləri vasitəsilə cəmiyyətdə təsdiq olunan, hakimiyyət və dominantlığın təhlilidir. Gender rolları dominantlıq və hakimiyyət kateqoriyaları vasitəsilə kişilər və qadınların münasibətlərini təyin edir. Gender tədqiqatları, hakimiyyətin ənənəvi (patriarxat) iyerarxiyasını qurmaq məqsədi ilə cəmiyyət hansı rollar, normalar, dəyərlər, xasiyyət cəhətlərini sosiallaşma, əmək bölgüsü, mədəni dəyərlər və simvollar sistemləri vasitəsilə kişilər və qadınları icra etməsini nəzərdə tutduğunu araşdırırlar.***

Sərdar Mustafayev göstərir ki, Azərbaycan əhalisinin çox hissəsini təşkil edən qadınlar müəyyən dərəcədə gender stratifikasiyası obyekti, yəni qadın birliyi problemlərinin öyrənilməsinə diqqət və onların internetdə əks olunmasını tələb edən ictimai təbəqədir. Lakin qadın interneti Azərbaycanda hələ populyar deyil. Məsələ əsla qadın birliyi üçün aktual mövzuların azlığında deyil, onlar kifayət qədərdir. Daha doğrusu, müstəqil sosial qrup kimi internet şəbəkəsində şəxsi qadın nümayəndəliyinə səy göstərməkdə qadınların özlərinin təşəbbüssüzlüyüdür. Bu da qadın virtual informasiya resurslarının az olmasının səbəbidir Bütövlükdə dünya təcrübəsində virtual qadın məkanı şərti olaraq iki hissəyə bölünür: “For! woman” - “Qadınlar üçün və yalnız onlar üçün yox” və sosial qadın interneti. Qadın tematikasını gender problemləri səviyyəsinə qaldıran internet, sosial qadın interneti hesab olunur. Milli internetdə yaranan vəziyyət əksər hallarda müasir elmi gender tədqiqatlarının sosiuma təsirindən və ictimai qadın təşkilatlanrının fəallıq dərəcəsindən asılıdır. Ölkədə onların sayı 130-dan artıqdır. Ölkəmizin qadın tarixinin artıq çoxlu qlobal mərhələləri mövcuddur. Bunları nəinki ictimaiyyət, hər bir qadın bilməli, bununla da özünü ən yüksək sosial səviyyəyə qaldırmalıdır. Təəssüf ki, biz hələ dövlət strukturları və qeyri-hökumət təşkilatları tərəfindən aktual qadın problemlərinə dair fəaliyyətlərini internetdə təqdim tendensiyasından danışa bilərik. 130 qadın QHT-sindən yalnız iki təşkilat - Yaradıcı Qadınlar Assosiasiyası və “Azəri-Türk” Qadın Cəmiyyəti qeyri-dinamik, kiçik saytlara malikdirlər. Azərbaycanda İnsan Hüquqlarının Müdafiəsi Mərkəzinin saytında bir neçə qəzet məqaləsi təqdim olunmuş kiçik gender bölməsi vardır. Sosial qadın interneti ölkədə Gender İnformasiya Mərkəzinin portalı ilə təqdim olunmuşdur. “For woman” - “Qadınlar üçün və yalnız onlar üçün yox” misalında internet şəbəkələri qadını diskursu cəmiyyətində ümumi qəbul edilmiş qadın mövzularını əks etdirir. Onlar sərt gender stereotipləri ilə ənənəvi olaraq təsəvvürə gətirilən qadınların sosial və mədəni rolunu ehtimal edirlər. O, ana və arvad, ailə ocağının qoruyucusu, uşaqların tərbiyəçisi, kişilərin gözəl və zərif həyat yoldaşıdır və s. Şübhəsiz ki, “yaşamaq və valeh etmək məharəti”ni təbliğ edən belə internet maraqlıdır müvafiq olaraq çoxsaylı auditoriyaya, həm də təkcə qadın deyil, həm də araşdırmaların göstərdiyinə görə kişi auditoriyasına malikdir. Onları kişiləri fəth etmənin, gözəlliyin sirləri. sağlamlıq, sağlam həyat tərzi, xarici görünüşdə dəbdə olan meyllər, kulinariya reseptləri, fərdi üslubun formalaşdırılması və s. maraqlandırır. Bu virtual istiqamətin ümumi tendensiyası patriarxat cəmiyyətin bütün qanunlarına görə formalaşmış qadın imicinin qorunmasını, yəni sosial abadlaşdırmaya və qadınların cəmiyyətdə roluna kişi nöqteyinəzərinin üstünlüyünü, hakimliyini ehtimal edir. Müəyyən edildiyinə görə, kişi burada kütləvi sahənin, məhz resurs və hakimiyyət uğrunda əsas mübarizənin getdiyi sahənin subyektidir. Qadının ikinci dərəcəli, tabe vəziyyəti cəmiyyətin patriarxat dünya görüşünün əsasını təşkil edir, sabit stereotiplər formalaşmış, kişi və qadınların şüurunda dərin kök salmış və siyasi, iqtisadi, ictimai həyatın bütün aspektlərində meydana çıxır. “Exo”nun forumunda xüsusi qadın yarımfəsli yoxdur, lakin məşhur müğənni qadınlar, bəzi hallarda müvəffəqiyyət qazanmış qadınlar qonaq qismində dəvət olunurlar. Bununla belə müzakirə sahələri bir qayda olaraq iki istiqamətdə keçirilir: qadın karyerası, qadın müvəffəqiyyəti əsasən həyatın “mədəni” sahələri (kino, teatr, estrada, moda) ilə ələqələndirilir; kişi qisməti - bu biznes ordu hakimiyyətin yüksək eşelonudur kişilərin müvəffəqiyyəti imkan və səlahiyyət dairəsi ilə müəyyən olunur. “Zerkalo”, “Azerbaijan” qəzetlərinin, “Azertag” və “Trend” agentliklərinin saytlarında forum yoxdur, buna görə də qadın və gender bərabərliyi məsələlərinə dair dərc olunan məqalələrə reaksiya vermək mümkün deyil. Ölkəmizdə yaradılmış gender saytlarının təhlili göstərir ki, informasiya texnologiyalarının təsir dairəsi hələlik ictimaiyyətlə əlaqələr yaratmaq üçün zəruri element kimi dərk edilmir. Üstəlik, müvafiq dəyərlər informasiya cəmiyyətinin əsas prinsiplərinə cavab vermir. Axı bu cəmiyyətdə informasiyanın keyfiyyəti və operativliyi hər şeydən vacibdir. Ənənəyə görə hətta informasiya məkanında da yalnız kişilərin zövqləri əsasında yaranmış sistemlər qadınların imkanlarını ailə və məişət məsələləri çərçivəsində məhdudlaşdırırlar. KİV və qadın problemlərinin mətbuatda işıqlandırılması məsələsinə gəldikdə isə, belə çıxır ki, KİV və mətbuat dövlətin ümumi münasibətindən və müvafiq strateji dəyərlər mövqeyindən çıxış edir. Bu vəziyyət tarixən yaranmışdır. Bunun pis və ya yaxşı olduğunu söyləmək çətindir. Lakin əksinə də ola bilərdi. Bununla belə, müəyyən məqamdan sonra mədəniyyətin tənzimlənmiş mexanizmi daha işləyə bilmir. Bəs belə halda nə etməli? Bəlkə “kişi dəyərlərini” “qadın dəyərləri” ilə əvəz etmək lazımdır? Bunun kömək edəcəyinə güman yoxdur, çünki bir ifrat halın başqa ifrat halla əvəz edilməsi heç nəyi dəyişmir. Deməli, həm kişilərin, həm də qadınların pozitiv dəyərlərini birləşdirən mədəniyyət modelləri axtarıb tapmaq lazımdır. Ənənəvi və virtual KİV qadına maraq göstərmir və onun cəmiyyətdəki roluna patrialxal baxışları möhkəmlətməkdə davam edir, qadınlar siyasət və iqtisadiyyat sahələrindən sıxışdırılır. Yeni başlanmış XXI əsr və Məqalə fəlsəfə elmləri doktoru, professor Ə.Tağıyev tərəfindən çapa məsləhət bilinib. bütövlükdə üçüncü minillik istər siyasətdə, istərsə də iqtisadiyyatda “qadınlara xas keyfiyyətlərin” cəlb olunmasını təkidlə tələb edəcəkdir. Eyni zamanda, “kişi keyfiyyətlərinə” tələbat azalacaqdır. Vaxtilə kişilərin fiziki qüvvəsini səfərbər etmiş aqrar və sənaye əsrləri başa çatmaqdadır, indi “qadın əsri” - intiusiya, diqqətçilik və işdə səliqə-sahman tələb edən informasiya texnologiyaları əsri başlanır. Əlbəttə, “kişi” və “qadın” keyfiyyətlərinə tələbat yenə də qalır. Lakin onların nisbəti dəyişir. Təəssüf ki, bəziləri bu həqiqəti inadkarlıqla başa düşmək istəmir. Qadın problemlərinin həlli üçün qadın təşkilatları tərəfindən inkişaf etdirilən işlərin yenə də davamı etdirilməsi zəruridir, lakin onların əhəmiyyəti azalmışdır. Halbuki qadınların köməyi ilə informasiya texnologiyalarından istifadə etməklə, bütün cəmiyyətin problemlərini üzə çıxarmaq olar, bu isə hamıdan ötrü maraqlı və faydalı olacaqdır. Məsələn, reproduktivlik problemi qadın layihələrinin çoxunda xalis feminist mövqelərdən əks etdirilir. Lakin bu problemə son illərdə baş vermiş demoqrafık dəyişikliklərdən təcrid edilmiş şəkildə yanaşdıqda gender tarazlığının pozulmasının nə dərəcədə fəlakətli olması görünmür. Demoqrafık şərait dedikdə, təkcə kişilərin və qadınların nəsli davam etdirmək sahəsində ciddi təsbit olunmuş reproduksiya funksiyaları nəzərdə tutulmur. Əksinə, bu, sözün geniş mənasında (böhranlı və digər şəraitdə) cəmiyyətin sosial sahəsində - iqtisadiyyatda, siyasətdə, mədəniyyətdə kişilərin və qadınların rollarının yenidən bölüşdürülməsi prosesidir. Bu proseslər, digər postsovet respubikalarında olduğu kimi, Azərbaycanda da cəmiyyətin strukturunun və onun sisteminin transformasiyasına gətirib çıxarmış siyasi proseslərin nəticəsidir. Beləliklə, ölkəmizdəki virtual mənbələrin təhlili göstərir ki, gender mədəniyyəti bütövlükdə cəmiyyətin mədəniyyətini təşkil etməsə də, bu sonuncudan asılıdır və ənənələrlə novatorluğun vəhdəti və ziddiyyəti baxımından, mədəniyyətin bu iki növünün hər ikisi eyni qanunauyğunluqlara tabedir. Gender mədəniyyəti - eyni sosial proseslərin müxtəlif sosial şəraitdəki spesifikasını və xarakterini aşkar etməyə imkan verən əsas kateqoriyalardan biridir. Yuxarıda qeyd etdiyimiz kimi, gender mədəniyyəti bu və ya digər xalqın mənəvi inkişafını səciyyələndirən ümumi mədəniyyətin törəməsi olub, mədəni ənənələrin cinslərin spesifik qarşılıqlı təsir sahəsində necə əks olunmasını göstərir. Mədəniyyət maddi və mənəvi dəyərləri qoruyub-saxlamaqdan, bu dəyərlərin mənimsənilməsi prosesində onların artmasından və gələcək nəsillərə çatdırılmasından ibarət olan inteqrasiya prosesinin vəhdətidir. Mədəniyyətin əsas funksiyası dəyərlər yaratmaq prosesində təzahür edir. Gender mədəniyyəti onu təşkil edən elementlərin qarşılıqlı münasibətlər sistemi və eyni zamanda, həmin elementlərin istehsalı və təkrar istehsal prosesidir, Bu, inkişaf etməkdə olan dinamik prosesdir, məzmun və forma etibarilə daim zənginləşməkdə olan ətraf aləmin reallıqlarına çox həssaslıqla münasibət göstərən bir hadisədir.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# Səs

Son səhifə 26 aprel





## Nizami rayonunda akademik Zərifə xanım Əliyevanın əziz xatirəsi anılıb

Nizami rayonunda, 229 saylı orta məktəbdə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 96-cı ildönümü ilə bağlı tədbir keçirilib. Tədbirdə əvvəlcə akademik Zərifə xanım Əliyevanın həyat və fəaliyyətinə həsr olunmuş film nümayiş etdirilib. Tədbiri giriş sözü ilə açan YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva akademik Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olduğunu bildirib, ömrünü insanların sağlamlığının qorunmasına həsr etmiş Zərifə xanımın xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağını qeyd edib.

Çıxış edən 7 saylı doğum evinin baş həkimi Leyla Seyidbəyova akademik Zərifə xanım Əliyevanın oftalmologiya elmi sahəsində fəaliyyətindən danışıb. Qeyd edib ki, Zərifə xanım Əliyeva respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verib: “Oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə nəinki keçmiş SSRİ məkanında, həmçinin dünya miqyasında şöhrət qazanıb. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərib”.

7 saylı doğum evinin həkimi Humay Aslanlı isə çıxışında vurğulayıb ki, görkəmli alim hər zaman öz qayğıkeşliyi və səmimiyyəti ilə insanların rəğbətini, ehtiramını qazanıb.

Nizami rayon icra hakimiyyəti başçısının müavini Gülnaz İsrafilova çıxışında bildirib ki, görkəmli alim bütün ömrünü ölkəmizdə oftalmologiya sahəsinin inkişafına, peşə ilə əlaqədar sonradan əmələ gələn göz xəstəliklərinin müalicəsinə həsr edib. Gözdə traxoma xəstəliyinin müalicəsinə, oftalmologiyanın müasir problemlərinə dair bir çox tədqiqatlar aparan görkəmli oftalmoloq -alim 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

229 saylı orta məktəbin direktoru Fəridə Bağırova və digər çıxış edənlər də akademikin zəngin həyat yolundan, elmi, pedaqoji və həkimlik fəaliyyətindən danışıblar. Bildirilib ki, insanlara nur bəxş etmək missiyası, qayğıkeşliyi, nəcibliyi ilə könüllərdə özünə əbədi yer qazanmış Zərifə xanım Əliyeva tibb sahəsində əldə etdiyi uğurlarla, fərdi keyfiyyətləri ilə ailəsinin və Vətəninin adını daim ucaldıb.

Sonda bir qrup qadına hədiyyələr təqdim edilib.

***R.HÜSEYNOVA***

## ELAN

22.12.2005-ci il tarixdə 05-05-№1-09 nömrə ilə hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə Lənkəran şöbəsi tərəfindən dövlət qeydiyyatına alınmış “Murad” SİB-in nizamnaməsi itdiyi üçün etibarsız sayılır.

***

22.12.2005-ci il tarixdə 05-05-№1-09 nömrə ilə hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə Lənkəran şöbəsi tərəfindən dövlət qeydiyyatına alınmış “Murad” SİB-in şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

## BAŞSAĞLIĞI

Sabir və Şəhla Yəhyayevlər Şahin və Elvira Zülfüqarovlara əzizləri **VASİF müəllimin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin.***

## YAP Quba rayon təşkilatı gənclər birliyinin hesabat-seçki konfransı keçirilib



***YAP Quba rayon təşkilatı gənclər birliyinin hesabat-seçki konfransı keçirilib. Konfrans iştirakçıları əvvəlcə YAP-ın Qurucusu, Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül-çiçək dəstələri düzüblər.***




Konfransı giriş sözü ilə açan YAP Quba rayon təşkilatının sədri Yusif Abidov Azərbaycan xalqının ciddi sınaqlarla üzləşdiyi bir dövrdə Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının bu gün tarixi missiyasını davam etdirdiyini, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Vətənimizin tərəqqisi naminə uğurla fəaliyyət göstərdiyini bildirib.



YAP Quba rayon təşkilatı gənclər birliyinin sədri Habil Bayramlı hesabat məruzəsi ilə çıxış edərək, ötən müddətdə görülən işlər barədə məlumat verib. Sonra hesabat məruzəsi ətrafında çıxışlar olub.

Çıxışlardan sonra təşkilati məsələlərə baxılıb. Əhməd Bəkirli YAP Quba rayon təşkilatı gənclər birliyinin yeni sədri, 21 nəfərdən ibarət Şura, həmçinin, YAP Gənclər Birliyinin növbəti konfransına nümayəndələr seçilib.

YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə çıxış edərək partiyanın yaradılmasının tarixi zərurət olduğunu bildirərək, o zamankı siyasi vəziyyətə diqqət yönəldib. Qeyd edib ki, müstəqilliyimizin ilk illərində xalqımızın düşdüyü çox ağır vəziyyət hər kəsin yaddındadır. Bu son dərəcə çətin vəziyyətdə dövlətimizi və xalqımızı xilas edə biləcək böyük siyasi liderə ehtiyac var idi: “Yaranmış vəziyyətdə müstəqilliyimizi və dövlətçiliyimizi yalnız Heydər Əliyev kimi dahi bir Şəxsiyyət qoruya bilərdi. Bu səbəbdən Ulu Öndər Heydər Əliyev xalqının səsinə səs verdi və yeni bir siyasi partiyanı - Yeni Azərbaycan Partiyasını yaratdı. Bu partiyanın təsis olunması, sonrakı illərdə xalqın yekdil səsi ilə hakimiyyətə gəlməsi nəticəsində dövlətimizin qarşılaşdığı problemlər öz həllini tapdı. Sevindirici haldır ki, hazırda müasir müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edir, yeni-yeni uğurlara imza atır”.

Konfransda çıxış edən Quba rayon icra hakimiyyəti başçısının müavini Səidə Abasova, Milli Məclisin deputatı Azər Badamov, YAP Siyasi Şurasının üzvü, YAP Gənclər Birliyinin sədri Seymur Orucov ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasəti, gənclərin inkişafı ilə bağlı həyata keçirilən layihələr, dövlət proqramları barədə söhbət açıblar.

Konfransda bir qrup fəal gəncə fəxri fərman və qiymətli hədiyyələr təqdim edilib.

Sonda YAP sıralarına yeni qəbul olunmuş bir qrup gəncə partiyanın üzvlük vəsiqəsi təqdim olunub.

***Nəzakət ƏLƏDDİNQIZI***


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**